AZƏRBAYCAN RESPUBLİKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ
(OMBUDSMAN)

# MƏHKUMLARIN HÜQUQİ VƏZİYYƏTİ

**BAKI 2003**

AZƏRBAYCAN RESPUBLİKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ
(OMBUDSMAN), PROFESSOR
**ELMİRA SÜLEYMANOVANIN**
ÜMUMİ REDAKTƏSİ İLƏ

**Rəyçilər:**

1. Aydın Qasımov
Azərbaycan Respublikası Ədliyyə Nazirinin müavini,
Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin rəisi
2. Musa Hümbətov
Bakı Dövlət Universitetinin müəllimi, beynəlxalq ekspert

**Tərtib edən:**

Aydın Səfixanlı
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı Elmi-analitik şöbənin baş məsləhətçisi

**Məhkumların hüquqi vəziyyəti, Bakı, Qanun 2003, s. 60**

BMT-nin İnkişaf Proqramının maliyyə dəstəyi ilə dərc edilən bu kitabda məhkumların milli qanunvericilikdə və beynəlxalq sənədlərdə təsbit olunmuş hüquq və vəzifələri təhlil edilmişdir.

Kitab cəza məhkumların, cəzaçəkmə müəssisələrinin işçi heyyətinin, hüquqşünasların, insan hüquq və azadlıqları problemləri ilə məşğul olan qeyri-hökumət təşkilatlarının, habelə ali məktəb müəllimlərinin və tələbələrinin istifadəsi üçün tövsiyyə olunur.

Q 1300130003-014 03-014 Az2
AB022051

© Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)
© Qanun

**Mündəricat:**

Ön söz……………………………………………………………….4
1. Azərbaycan Respublikasının Qanunvericiliyində məhkumların hüquqi vəziyyəti…………………………………………………………..…6
2. Məhbuslarla beynəlxalq minimal standart davranış qaydaları……………………………..……………………………………17
3. Avropa penitensiar qaydaları………………………………………35
4. İstifadə olunmuş ədəbiyyat……………………...…………………57

Ön söz

Müstəqillik əldə etdikdən sonra hüquqi dövlət quruculuğu yolunu seçmiş Azərbaycan Respublikası insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi qəbul edərək, bu sahədə bir sıra hüquqi islahatlar həyata keçirməyə başladı.

Azərbaycan Respublikası beynəlxalq hüquq normalarının primatlığı prinsipini qəbul edərək, öz milli qanunvericiliyini beynəlxalq müqavilələrin normalarına uyğun təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirmişdir.

1995-ci il 12 noyabr tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında insan hüquqlarına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha effektiv təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti bu sahədə mühüm fərman və sərəncamlar imzalamışdır.

Azərbaycan Respublikasının Prezidentinin «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» 1998-ci il 22 fevral tarixli Fərmanı insan və vətəndaş hüquqlarının təmini istiqamətində mühüm tədbirlər planı müəyyən etmişdir. Həyata keçirilən tədbirlərin səmərəliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli 832 saylı Sərəncamı ilə «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» təstiq edilmişdir.

Azərbaycanda insan hüquqlarının qorunması ilə bağlı aparılan islahatların bir istiqaməti də məhkumların hüquqlarının qorunması məqsədi ilə penitensiar sahədə həyata keçirilən tədbirlərdir.

Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş yeni Cəzaların İcrası Məcəlləsi ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarının tərkib hissəsidir. Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyasına, dövlətimizin tərəfdar çıxdığı beynəlxalq sənədlərə müvafiq hazırlanmış bu yeni qanunverici akt öz humanistliyinə, demokratikliyinə və insan hüquq və azadlıqlarının etibarlı təminatına imkan yaradan icra mexanizminə görə sabiq məcəllədən kəskin şəkildə fərqlənir. Yeni məcəllədə diqqəti xüsusilə cəlb edən məsələlərdən biri də məhkumların hüquqi vəziyyətinin kifayət qədər geniş və ətraflı müəyyən

edilməsidir. Belə ki, sabiq İslah Əmək Məcəlləsində məhkumların hüquqi vəziyyətinə aydınlıq gətirən məsələyə cəmi bir maddə həsr olunmuşdursa, yeni məcəllədə məhkumların hüquqi vəziyyətinə müstəqil bölmə həsr olunmuş, məhkumların malik olduğu hüquq və azadlıqlar daha əhatəli şəkildə öz təsbitini tapmışdır. Məlumdur ki, məhkumların hüquqi vəziyyəti onların hüquq və azadlıqlarının, qanuni mənafelərinin və vəzifələrinin məcmusundan ibarətdir. Məhkumların əsas hüquqlarının bilavasitə qanunverici tərəfindən müəyyən edilməsi heç də təsadüfi deyildir. Qanunverici bununla məhkumları cəzaların icrası prosesində iştirak edən əsas subyektlər sırasına daxil etmiş və islah olunma prosesində onların iştirakının vacibliyini bir daha göstərmişdir.

Qeyd olunanlarla əlaqədar son illərdə məhkumların bu hüququnun həyata keçirilməsi, yəni onlara öz hüquq və azadlıqları, vəzifələri barəsində məlumat verilməsi sahəsində istər dövlət, istərsə qeyri-hökumət təşkilatları tərəfindən müəyyən işlər görülsə də, bu tədbirlərin fəal şəkildə davam etdirilməsinə yenə də ehtiyac duyulur. Bu ehtiyacı nəzərə alaraq Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı «Məhkumların hüquqi vəziyyəti» adlı kitab hazırlamışdır. Kitabda Azərbaycan Respublikasının Konstitusiyasına və Cəzaların İcrası Məcəlləsinə istinadən məhkumların hüquqi vəziyyətinə kifayət qədər ətraflı aydınlıq gətirilmişdir. Burada ardıcıllıqla məhkumların əsas hüquqları təhlil edilmiş, cəza çəkən şəxslərin vəzifələrinə və onlara riayət edilməsinin vacibliyinə diqqət yetirilmişdir. Kitabda diqqəti onun anlaşıqlı dildə yazılması cəlb edir. Kitaba məhkumların hüquq və azadlıqlarının müdafiəsinə, onlarla davranışa həsr olunmuş iki beynəlxalq sənədin əlavə edilməsi onun faydalılığını daha da artırır.

Kitab cəza çəkən məhkumların, cəzaçəkmə müəssisələrinin işçi heyətinin, hüquqşünasların, insan hüquq və azadlıqları problemləri ilə məşğul olan qeyri-hökumət təşkilatlarının, habelə təhsil müəssisələrinin istifadəsi üçün tövsiyyə olunur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) E. Süleymanova

1. Azərbaycan Respublikasının Qanunvericiliyində məhkumların hüquqi vəziyyəti

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz.

Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

Məhkum - barəsində cəza təyin edən məhkəmə hökmü qanuni qüvvəyə minmiş şəxsdir.

Azərbaycan dövləti məhkumların hüquq və azadlıqlarına, qanuni mənafelərinə hörmət edir və onları qoruyur, məhkumlara islah edilmə vasitələrinin tətbiq edilməsinin qanuniliyini, cəzaların icrası zamanı onların hüquqi müdafiəsini və şəxsi təhlükəsizliyini təmin edir.

Cəzaların icrası və çəkilməsi zamanı məhkumların qanunvericiliklə nəzərdə tutulmuş hüquq və azadlıqları təmin olunur.

Məhkumların hüquq və azadlıqları yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada məhdudlaşdırıla bilər.

**Cəzaların icrası və çəkilməsi zamanı məhkumların əsas aşağıdakı hüquqları vardır:**

- Cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək;
- İctimai fayadlı əməklə məşğul olmaq;
- İstirahət etmək;
- Pensiya və ya sosial müavinət almaq;
- İlk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq;
- Öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barəsində məlumat almaq;
- Tərcüməçi xidmətindən istifadə etmək;
- Dini ayinlərin icra edilməsində iştirak etmək;
- Hüquqi yardım almaq;
- Təhsil almaq və peşə hazırlığı keçmək;
- Əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların hüquqları;

- Məhkumların müraciət etmək hüququ;
- Məhkumların şəxsi təhlükəsizlik hüququ.

**Cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək hüququ**

Məhkumların qanunla təsbit olunmuş bu hüququ onlarla rəftara həsr olunmuş beynəlxalq sənədlərin tələblərində də nəzərdə tutulmuşdur.

Cəzaları icra edən müəssisə və ya orqanın işçi heyəti məhkumlara qarşı münasibətdə nəzakətli olmalıdır. Məhkumlar qəddar və ya insan ləyaqətini alçaldan rəftara məruz qalmamalıdırlar. Məhkumlara məcburetmə tədbirləri yalnız qanuna əsasən tətbiq edilə bilər.

Məhkumlar, onların həyat və sağlamlıqlarını təhlükə altına qoya bilən tibbi və ya başqa təcrübələrə məruz qala bilməzlər.

**İctimai faydalı əməklə məşğul olmaq hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Bu hüquq məhkumlara da aiddir.

Hər bir məhkum cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olmalıdır.

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq, onları faydalı əməyə cəlb etməlidirlər. Məhkumlar bir qayda olaraq, cəzaçəkmə müəssisələrinin istehsalat sahələrində və cəzaçəkmə müəssisələrindən kənar digər istehsalat obyektlərində müəyyən olunmuş qaydada mühafizə, təcrid olunmaqla əməyə cəlb olunurlar.

Məhkumlar cəzaçəkmə müəssisəsində müdriyyətin icazəsi ilə fərdi əməklə məşğul ola bilərlər.

Altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumlara, birinci və ikinci qrup əlilliyi olan məhkumlara, hamiləliyi dörd aydan çox olan və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində üşaqları olan qadın məhkumlara könüllülük əsasında işləməyə icazə verilir.

Yetkinlik yaşına çatmayan məhkumlar əmək qanunvericiliyinə uyğun işə cəlb edilirlər.

Həbsxanada cəza çəkən məhkumların əməyi ancaq həbsxana ərazisində təşkil olunur.

Məhkumların əməyindən istifadə edilməsi, qadağan olunan işlərin və vəzifələrin siyahısı cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə müəyyən edilir.

Məhkumlara əmək mübahisələrinin həlli üçün əmək fəaliyyətini dayandırmaq və tətil etmək qadağan edilir.

**İstirahət etmək hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsinə əsasən, hər kəsin, o cümlədən məhkumların istirahət hüququ vardır.

Məhkumların iş vaxtının müddəti, əməyin mühafizəsi və istehsalat sanitariya qaydaları əmək qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

Məhkumlara istirahət günləri verilir və onlar əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada bayram günlərində işdən azad edilirlər.

Məhkumların ödənişli əməyə cəlb edildikləri vaxt ümumi əmək stajına daxil edilir. Əmək stajının hesablanması təqvim ilinin yekununa əsasən, cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən aparılır. Ardıcıl olaraq əmək vəzifələrini yerinə yetirməyən, yaxud digər hallarda işdən boyun qaçıran məhkumların müvafiq dövrdəki iş vaxtları cəzaçəkmə müəssisəsinin müdiriyyətinin təqdimatına əsasən məhkəmənin qərarı ilə onların ümumi əmək stajından çıxarıla bilər.

Əmək fəaliyyəti ilə məşğul olan məhkumlar hər il əmək qanunvericiliyi ilə müəyyən edilmiş ödənişli məzuniyyətdən istifadə hüququna malikdirlər. Məzuniyyətdən istifadə zamanı cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara qısa müddətli səfər etmək qaydası qanunvericiliklə müəyyən edilir.

Məhkum qadınlar hamiləliyə və doğuşa görə qanunvericilikdə müəyyən edilmiş müddətə işdən azad edilirlər.

İş normalarını artıqlaması ilə yerinə yetirən və ya müəyyən edilmiş tapşırıqları nümunəvi yerinə yetirən məhkumlara əmək qanunvericiliyində nəzərdə tutulmuş əlavə məzuniyyət verilə bilər.

Məhkumlar əmək qanunvericiliyinə uyğun olaraq əməyin ödənilməsi hüququna malikdir.

**Pensiya və ya sosial müavinət almaq hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsinə əsasən, hər kəsin sosial təminat hüququ vardır.

Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir. Bu konstitusion hüquqlar məhkumlara da aiddir.

Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir.

Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər dövlət məcburi sığortalanmasına cəlb edilir, qadın məhkumlar isə bundan əlavə ümumi əsaslarla hamiləliyə və ya doğuşa görə müavinətlə təmin olunurlar.

Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər ümimi əsaslarla qanunvericilikdə nəzərdə tutulmuş hallarda pensiya təminatı hüququna malikdirlər.

Məhkumların pensiyalarından qanunvericiliklə müəyyən edilmiş əsaslarla və miqdarda tutmalar aparılır.

Cəzaçəkmə müəssisələrində və həbsxanalarda məhkumların şəxsi hesabına, bütün tutulmalı məbləğlərdən asılı olmayaraq onlara hesablanmış aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı iyirmi beş faizi, altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın məhkumların, birinci və ikinci qrup əlilliyi olan məhkumların, yetkinlik yaşına çatmayanların və ya hamilə, cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınların şəxsi hesabına isə aylıq əmək haqqının, pensiyanın və digər gəlirlərin ən azı əlli faizi keçirilir.

**Məhkumların tibbi-sanitariya təminatı hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

Məhkumların da sağlamlıq hüququnun təmin olunması milli qanunvericilik və beynəlxalq sənədlərdə təsbit olunmuşdur.

Cəzaçəkmə müəssisələrində müalicə-profilaktika, sanitariya-profilaktika və sanitariya-epidemiologoya işi qanunvericiliyə, habelə cəzanın icrası qaydasına və şərtlərinə uyğun təşkil edilir və həyata keçirilir.

Cəzaçəkmə müəssisələrində məhkumlara tibbi xidmət göstərmək üçün tibb-sanitariya hissələri, həmçinin yoluxucu xəstələrin, alkoqolizm və

narkomaniyaya düçar olanların, insan immunçatışmazlığı virusu (QİÇS) ilə yoluxmuş xəstələrin ambulator müalicəsi və saxlanılması üçün müalicə müəssisələri təşkil edilir.

Cəzaçəkmə müəssisələrinin müdiriyyəti məhkumların ümumi və şəxsi sanitariya-gigiyena tələblərinə əməl etmələrini təmin edir.

Yemək qəbul etməkdən imtina edən və bununla əlaqədar həyatı üçün təhlükə yaranan məhkumların tibbi rəyə əsasən məcburi qaydada qidalandırılmasına yol verilir.

Cəzaçəkmə müəssisələrində məhkumlara tibbi xidmət göstərilməsi, sanitar nəzarətinin təşkili və həyata keçirilməsi, müəssisədən kənar tibb müəssisələrindən istifadə, bu məqsədlə onlara tibb işçilərinin cəlb edilməsi qaydası normativ hüquqi aktlarla müəyyən edilir.

Cəzaçəkmə müəssisələrində məhkumlar tibbi məsləhət və müalicə almaq üçün pullu xidmət göstərən tibb müəssisələrinə müraciət etmək hüququna malikdirlər. Bu növ xidmətlərin, dərmanların ödəniş haqqı məhkum və ya onun qohumları tərəfindən həyata keçirilir. Belə hallarda tibbi məsləhətin verilməsi və müalicənin aparılması cəzaçəkmə müəssisəsinin tibb-sanitariya hissəsində, həmin hissənin işçilərinin müşahidəsi altında həyata keçirilir.

**Öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barəsində məlumat almaq hüququ**

Məhkumların öz hüquq və vəzifələri barədə, o cümlədən məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası, şərtləri barəsində məlumat almaq hüququ vardır.

Məhkumlar cəzaçəkmə müəssisələrinə cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına uyğun olaraq müdriyyət tərəfindən qəbul edilirlər.

Cəzaçəkmə müəssisələrinə yeni qəbul edilmiş məhkumlar iki həftəyədək müddətə başqa məhkumlardan ayrı saxlanılırlar.

Məhkumların ayrı saxlandığı müddətdə cəzaçəkmə müəssisəsinin müdriyyəti tərəfindən onların hüquq və vəzifələri, qanunla nəzərdə tutulmuş əmək və istirahət şəraiti izah olunmalı, cəzanın icrasını tənzimləyən qanunvericilik aktları və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları ilə tanış olmaları üçün şərait yaradılmalıdır.

**Tərcüməçi xidmətindən istifadə etmək hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 45-ci maddəsinə əsasən, hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Qeyd edilən hüquqlar məhkumlara da şamil edilir.

Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Hüquq və azadlıqların müdafiəsi üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təklif, ərizə və şikayətlə dövlət dilində və ya başqa dildə müraciət etmək, zəruri hallarda isə bu məqsədlər üçün cəzanı icra edən müəssisə və ya orqan tərəfindən təqdim edilən tərcüməçi xidmətindən istifadə etmək hüququna malikdirlər.

**Dini etiqad azadlığı**

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır.

Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dini münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

Məhkumların vicdan və dini etiqad azadlığına təminat verilir. Onlar istədikləri dinə etiqad etmək və ya etməmək hüququna malikdirlər.

Məntəqə tipli cəzaçəkmə müəssisələri və xüsusi müəssisələrdə məhkumların xahişi ilə onlara cəzanın icra edildiyi yerin inzibati ərazi hüdudları daxilində ibadət yerlərinə getməyə icazə yerilə bilər.

Müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış dini birliklərin din xadimləri məhkumların xahişi ilə cəzaçəkmə müəssisələrinə dəvət olunurlar. Məhkumlara cəzaçəkmə müəssisələrində dini ayinləri yerinə yetirməyə, dini ləvazimat və ədəbiyyatdan istifadə etməyə icazə verilir. Bu məqsəd üçün cəzaçəkmə müəssisəsinin müdriyyəti müvafiq yer ayırır.

Din xadimlərinin şəxsi təhlükəsizliyi təmin olunmaqla, onlar xüsusi rejimli cəzaçəkmə müəssisələrinin birnəfərlik kameralarında, intizam və cərimə təcridxanalarında, kamera tipli otaqlarda saxlanılan məhkumların yanına buraxıla bilərlər.

Ağır xəstəliyi ilə əlaqədar həyatı üçün təhlükə yaranan nıəhkumların xahişi ilə din xadimləri zəruri dini ayinləri yerinə yetirmək üçün cəzaçəkmə müəssisələrinə dəvət oluna bilərlər.

**Hüquqi yardım almaq hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

Məhkumların hüquqi yardım almaq hüququ qanunvericiliklə təmin edilir.

Hüquqi yardım almaq üçün məhkumların özlərinin, yaxın qohumlarının və ya onların qanuni nümayəndələrinin ərizəsinə əsasən məhkumlara vəkillərlə, habelə belə yardımı göstərmək hüququna malik olan digər şəxslərlə görüş verilir.

Məhkumlara hüquqi yardım almaq üçün müəyyən edilmiş görüşlərin sayı və müddəti məhdudlaşdırılmır və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına riayət etməklə həyata keçirilir. Belə görüşlər Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş görüşlərin sayına daxil edilmir.

Vəkil və ya hüquqi yardım göstərmək hüququna malik olan digər şəxs cəzağəkmə müəssisəsinə onun şəxsiyətini və səlahiyyətlərini təsdiq edən sənədi təqdim etdikdə buraxılır. Belə görüşlər tərəflərin arzusu ilə təklikdə keçirilir.

**Təhsil və peşə hazırlığı hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır

Cəzaçəkmə müəssisələrində məhkumların ümumi orta təhsili həyata keğirilir. Yaşı qırxdan çox olan məhkumlar, birinci və ikinci qrup əlilliyi olan məhkumlar ümumi orta təhsilinə öz arzularına  görə cəlb edilirlər.

Məhkumların ümumi orta təhsili həvəsləndirilir və onların islah edilməsi müəyyənləşdirilərkən nəzərə alınır.

Əmək qanunvericiliyinə uyğun olaraq ümumi orta təhsil alan məhkumlar imtahan vermək üçün işdən azad edilirlər.

Cəzaçəkmə müəssisələrinin nəzdindəki ümumi orta təhsil müəssisələrinin pedaqoji kollektivi tərbiyə işinin aparılmasında cəzaçəkmə müəssisələrinin müdriyyətinə köməklik edir.

Müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin ümumi orta təhsili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər ümumi orta təhsilə cəlb olunmurlar. Onların fərdi qaydada təhsil alması üçün cəzanın icrası və çəkilməsi qaydasına, şərtlərinə zidd olmayan şərait yaradılır.

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə əsasən, peşəsi və ya ixtisası olmayan məhkumlar üçün cəzaçəkmə müəssisələrində peşə təhsili və ya peşə hazırlığı həyata keçirilir.

Hamilə və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan məhkum qadınlar, altmış yaşından yuxarı kişi və əlli beş yaşından yuxarı qadın məhkumlar, birinci və ikinci qrup əlilliyi olan məhkumlar peşə təhsilinə və ya peşə hazırlığına öz arzularına görə cəlb edilirlər.

Tərbiyə müəssisələrində peşə təhsili və ya peşə hazırlığı məhkumların iş günü müddəti ərzində həyata keçirilir.

Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlar peşə təhsili üzrə imtahan vermək üçün əmək qanunvericiliyində nəzərdə tutulmuş müddətə işdən azad edilirlər. Bu müddət üçün onlara əmək haqqı hesablanmır, lakin yemək pulsuz verilir.

Məntəqə tipli cəzaçekmə müəssisələrində cəza çəkən məhkumların peşə təhsili üzrə imtahan verməsi dövründə onların maddi təminatı qanunvericiliklə müəyyən etdilmiş qayda və şərtlərlə həyata keçirilir.

Məhkumların peşə təhsili və ya peşə hazırlığı həvəsləndirilir və onların islah edilməsi müəyyən edilərkən nəzərə alınır.

Peşə təhsili və ya peşə hazırlığı qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər peşə təhsili və peşə hazırlığına cəlb olunmurlar.

**Əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların hüquqları**

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqm statusuna malik olan məhkumların hüquqlarına da hörmətlə yanaşmağı və onların həyata keçirilməsini təmin etməyi nəzərdə tutmuşdur.

Əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların qısa müddətdə şəxsi məsələlər üzrə öz dövlətlərinin Azərbaycan Respublikasındakı diplomatik və konsulluq nümayəndəlikləri ilə və ya onlara himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqəyə girmək hüququna malikdirlər.

Əcnəbi və ya vətəndaşlığı olmayan məhkum şəxslər Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası Məcəllələri və digər qanunvericilik aktları ilə müeyyən edilmiş məhdudlaşdırmalar istisna edilməklə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinə dair qanunvericilikdə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilmiş hüquqlardan istifadə edir və vəzifələr daşıyırlar.

**Məhkumların müraciət etmək hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətdə yazılı cavab verilməlidir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyetini və işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 65-ci maddəsinə əsasən, məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzanın yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

Məhkumlar cəzanın çəkilməsinin təxirə salınması və ya onun ləğv edilməsi, xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi, ittiham

hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad edilməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiyanın tətbiq edilməsi, müalicə müəssisəsində saxlanma vaxtının cəzaçəkmə vaxtına daxil edilməsi, məhkumluğun vaxtından əvvəl götürülməsi üçün ərizə ilə məhkəməyə, əfv edilmək üçün isə Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki qüsurlardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək hüququ vardır.

Qanunla məhkumların təklif, ərizə və şikayətləri yazılı və şifahi verilə bilər.

Azadlıqdan məhrum edilmiş şəxslərin qanunla müəyyən olunmuş təşkilatlara ünvanlanmış təklif, ərizə və şikayətləri cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən göndərilir.

Digər cəza növlərinə məhkum edilmiş şəxslər təklif, ərizə və şikayətlərini sərbəst göndərirlər.

Məhkumların cəzanı icra edən müəssisə və ya orqanın vəzifəli şəxslərinin qərar və hərəkətlərinə dair təklif, ərizə, şikayətləri həmin qərarların, hərəkətlərin icrasını dayandırmır.

Məhkumların təklif, ərizə və şikayət göndərdiyi orqan və ya vəzifəli şəxslər onlara qanunvericiliklə müəyyən edilmiş müddətdə baxmalı, nəticəsi barədə məhkuma yazılı məlumat verməlidirlər.

Cəzanı icra edən müəssisə və ya orqanın vəzifəli şəxsləri məhkumları müəyyən edilmiş, onlara bildirilmiş günlərdə, saatlarda qəbul edir.

Cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) ünvanlanmış təklif, ərizə və şikayətlər senzuradan keçirilmir, bir gündən gec olmayaraq (istirahət və bayram günləri istisna olmaqla) aidiyyəti üzrə göndərilir.

**Məhkumların şəxsi təhlükəsizlik hüququ**

Azərbaycan Respublikası Konstitusiyasının 31-ci maddəsinə əsasən, hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

Məhkumlar şəxsi təhlükəsizlik hüququna malikdirlər. Azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun həyatına, sağlamlığına, yaxud şəxsiyyətinə qarşı digər məhkumlar tərəfindən və ya başqa şəxslər tərəfindən təhlükə yaranarsa, o, xüsusi müəssisənin və ya cəzaçəkmə müəssisəsinin müdiriyyətinə təhlükəsizliyini təmin etmək üçün ərizə və ya şifahi müraciət etmək hüququna malikdir.

Cəzanı icra edən xüsusi müəssisənin və ya cəzaçəkmə müəssisəsinin müdiriyyəti təhlükənin aradan qaldırılması üçün məhkumun təhlükəsiz yerə köçürülməsi və ya başqa tədbirlər görülməsi barədə qərar qəbul edir.

**Məhkumların əsas vəzifələri**

Azərbaycan Respublikası Konstitusiyasının 72-ci maddəsinə əsasən, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və vəzifələrindən bilavasitə irəli gələn vəzifələr daşıyır.

Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Oanunu bilməmək məsuliyyətdən azad etmir.

Məhkumlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş vəzifələr daşıyırlar. Məhkumların əsas vəzifələri aşağıdakılardır:

- Məhkumlar Azərbaycan Respublikasının vətəndaşları üçün qanunvericiliklə müəyyən olunmuş vəzifələri yerinə yetirməli və cəmiyyətdə qəbul edilmiş müvafiq davranış normalarına riayət etməlidirlər.
- Məhkumlar Cəzaların İcrası Məcəlləsinin, habelə ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktların tələblərinə riayət etməlidirlər.
- Məhkumlar cəzanı icra edən müəssisə və ya orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirməlidirlər.
- Məhkumlar cəzanı icra edən müəssisənin işçi heyətinə və cəzaçəkmə müəssisəsinə baş çəkən şəxslərə, habelə digər məhkumlara qarşı nəzakətlə davranmalıdırlar.

Məhkumlar üzərinə düşən vəzifələri, habelə cəzanı icra edən müəssisə və ya orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirmədikdə, qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.

Məhkumların vəzifələri digər normativ aktlarda da nəzərdə tutula bilər və onların icrası məcburudir.

## 2. Məhbuslarla beynəlxalq minimal standart davranış qaydaları

Birləşmiş Millətlər Təşkilatının cinayətkarlığın qarşısını almaq və qanun pozucuları ilə davranışa dair 1955-ci ildə Cenevrədə keçirilən birinci konqresində qəbul edilmiş və İqtisadi və Sosial Şura tərəfindən onun 663 (XXIV) sayh 31 iyul 1957-ci il və 2076 (XII) saylı 13 may 1977-ci il tarixli qətnamələri ilə bəyənilmişdir.

Aşağıdakı qaydalar nümunəvi həbs cəzası müəssisələri sistemini müfəssəl təsvir etmək məqsədi daşımayıb, yalnız müasir fikrin hamı tərəfindən qəbul edilmiş nailiyətləri əsasında və hazırda daha qənaətbəxş olan sistemlərin başlıca elementləri nəzərə alınmaqla, adətən məhbuslarla davranış, həbsxana müəssisələrinin idarə olunması sahəsində prinsipial və praktik baxımdan düzgün sayılanları ifadə etmək üçün təsis edilmişdir.

Hüquqi, sosial, iqtisadi və coğrafi şəraitin müxtəlifliyi nəzərə alınmaqla aydındır ki, bu qaydaların heç də hamısını hər yerdə və eyni vaxtda tətbiq etmək olmaz. Bununla belə, bu qaydalar daim onların həyata keçirilməsində qarşıya çıxan praktik çətinliklərin aradan qaldırılmasına yönəldilmiş səylər doğurmalıdır. Belə ki, onlar ümumiyyətlə və bütövlükdə Birləşmiş Millətlər Təşkilatının məqbul saydığı minimal şərtləri əks etdirir.

Digər tərəfdən onlar fikrin daim irəli getdiyi fəaliyyət sahəsini əhatə edirlər. Bu qaydalar onlarda əksini tapmış prinsiplərə uyğun və onlarda nəzərdə tutulan məqsədlərə nail olunmasına yönəldilmiş təcrübələrin keçirilməsinə və praktikanın tətbiqinə əngəl törətmək məqsədi daşımır. Qaydalardan bu ruhda kənara çıxmağa yol verilməsi mərkəzi həbsxana idarəsi üçün həmişə bəraətverici olacaqdır.

2.1-ci yarımfəsildə təsbit olunmuş müddəalar cəzaçəkmə müəssisələrinin ümumi idarə edilməsinə və cinayət işi, yaxud mülki iş üzrə həbsdə olmasından və yalnız istintaqda olmasından, yaxud məhkum edilməsindən - hakimin təyin edilməsindən-hakimin təyin etdiyi «təhlükəsizlik tədbiri», yaxud islah tədbirləri məqsədilə həbs edilənlər daxil olmaqla - asılı olmayaraq, bütün kateqoriyadan olan məhbuslara aiddir.

2.2-ci yarımfəsildə haqqında hər bölmədə bəhs edilən xüsusi kateqoriyalara tətbiq edilən qaydalar ifadə edilir. Lakin 2.2.1-ci bəndi üzrə məhkum edilmiş məhbuslara aid qaydalar eyni dərəcədə barəsində yarımfəsilin digər bəndlərində söhbət gedən kateqoriyalardan olan şəxslərə də - bu kateqoriyadan olan şəxslər üçün işlənib hazırlanmış qaydalara zidd olmamaq və sonuncuların vəziyyətini yaxşılaşdırmaq şərtilə - aid edilməlidir.

Qaydalar azyaşlılar üçün bu cür müəssisələrin - Barstalın müəssisələri, yaxud islah evləri kimi - idarə olunmasını nizama salmaq məqsədi daşımır. Bununla belə, 2.1-ci yarımfəsil bu müəssisələrə də tətbiq edilə bilər.

Azyaşlılar kateqoriyasına, heç olmasa, azyaşlı cinayətkarları mühakimə etmək səlahiyyətinə malik məhkəmələrə aid olan bütün gənc məhbuslar daxil edilməlidir. Bir qayda olaraq, belə gənc adamlar həbs cəzasına məhkum edilməlidir.

## 2.1. Ümumtətbiq qaydaları

### Əsas prinsip

Aşağıdakı qaydalar qərəzsiz tətbiq edilməlidir. İrq, dərinin rəngi, cins, dil, dini, siyasi, yaxud digər əqidə, milli, yaxud sosial mənşə, mülki vəziyyət, ailə mənşəyi, yaxud sosial vəziyyət əlamətlərinə görə ayrı-seçkilik yolverilməzdir.

Digər tərəfdən, əhalinin bu və ya digər qruplarına mənsub məhbusların dini etiqadlarına və əxlaqi görüşlərinə hörmət edilməlidir.

### Reyestr

Bütün həbsxanalarda səhifələri nömrələnmiş cildli jurnal şəklində reyestr olmalıdır. Orada hər bir məhbusa aid aşağıdakı məlumatlar qeyd edilməlidir:

a) onun şəxsiyyətinə dair məlumatlar;

b) həbs edilməsinin səbəbləri və həbs edilməsi barəsində qərar qəbul etmiş hakimiyyət orqanları;

c) həmin həbsxanaya daxil olduğu və oradan çıxdığı gün və saat.

Heç kəs təfərrüatı qabaqcadan reyestrdə qeyd edilən həbsedilmə barəsində əsl əmr olmadan dustaqxanaya qəbul edilə bilməz.

**Məhbuslar müvafiq kateqoriyalara bölünürlər.** Müxtəlif kateqoriyalardan olan məhbuslar onların cinsi, yaşı, əvvəllər məhkum olunması, həbs edilməsinin hüquqi səbəbləri və onlarla davranışa dair sərəncam nəzərə alınmaqla, ayrı-ayrı müəssisələrdə, yaxud eyni müəssisənin müxtəlif hissələrində saxlanırlar. Beləliklə:

a) kişilər və qadınlar, mümkün qədər, ayrı-ayrı müəssisələrdə saxlanmalıdır; kişilər və qadınlar eyni müəssisədə saxlanırsa, tamamilə ayrı-ayrı binalarda yerləşdirilməlidir.

b) məkum edilməmiş məhbuslar məhkum edilmişlərdən ayrı yerləşdirilməlidir.

c) borc öhdəliklərini yerinə yetirmədiyinə görə məhkum edilmiş şəxslər və mülki işlərə görə həbs edilmiş məhbuslar cinayət törətmiş şəxslərdən ayrı yerləşdirilməlidir.

d) azyaşlı qanun pozucuları yaşlılardan ayrı saxlanmalıdır.

**Binalar**

Məhbusların kamera, yaxud otaqlarda gecələdiyi yerlərdə onların hər birinin ayrıca kamerası, yaxud otağı olmalıdır. Əgər xüsusi səbəb, məsələn, dustaqxananın müvəqqəti olaraq həddindən çox dolu olması üzündən mərkəzi həbsxana idarəsi bu qaydanın tətbiqindən imtina etməli olduqda iki məhbusun eyni kamerada, yaxud otaqda yerləşdirilməsi mümkündür.

Ümumi kameralar olan yerlərdə orada yerləşdirilən məhbuslar onların bu şəraitdə bir yerdə yaşaya biləcəklərinə əmin olmaq baxımından diqqətlə seçilməlidir. Lakin hər gecə müəssisənin xarakterinə uyğun olaraq daimi nəzarət qoyulmalıdır.

Məhbusların istifadə etdiyi yerlər, xüsusilə yatacaq yerləri bütün sanitariya tələblərinə cavab verməli, həm də, belə yerlərin iqlim şəraitinə, kubaturasına, minimal sahəsinə, işıqlandırılmasına, qızdırılmasına, ventilyasiyasına lazımi diqqət yetirilməlidir.

Məhbusların yaşadıqları və işlədikləri yerlərdə:

a) pəncərələr məhbusların gün işığında oxuması və işləməsi üçün kifayət edəcək irilikdə olmalı və elə düzəldilməlidir ki, süni ventilyasiya sisteminin olub-olmamasından asılı olmayaraq təmiz havanın gəlməsi təmin edilsin.

b) süni işıqlandırma məhbusların görmə qabiliyyətinə xələl gətirmədən oxumasına və işləməsinə kifayət etməlidir.

Sanitar qurğuları hər bir məhbusa təbii ehtiyaclarını, ona lazım olduqda, təmizlik və ədəb şəraitində ödəməsinə kifayət etməlidir.

Hamam qurğularının və duşların sayı hər bir məhbusun hər iqlimə uyğun temperaturda çimə bilməsi, yaxud duş qəbul edə bilməsi, bunu etməyə borclu olması, bunu ilin fəsli, coğrafi rayon nəzərə alınmaqla, ümumi gigiyena şərtlərinin tələb etdiyi qədər tez-tez yəni mülayim iqlimdə, heç olmasa həftədə bir dəfə - etməsi üçün kifayət etməlidir.

Müəssisənin məhbusların müntəzəm istifadə etdikləri bütün hissələri həmişə lazımi qaydada ən ciddi təmizlik şəraitində saxlanmalıdır.

**Şəxsi gigiyena**

Məhbuslardan özlərini təmiz saxlamaları tələb edilməlidir. Bunun üçün onlar təmizliyi və sağlamlığı qoruyub saxlamaq üçün lazım olan su və tualet ləvazimatı ilə təmin edilməlidir.

Məhbusların zahiri görkəmlərini özlərinin insan ləyaqətinə uyğun saxlamaları üçün onlara öz saç və saqqallarına qulluq etmək imkanı yaradılmalı, kişilərə üzlərini müntəzəm surətdə qırxmalarına icazə verilməlidir.

**Paltar və yatacaq ləvazimatı**

Mülki paltar geymək hüququ olmayan məhbuslara mövcud iqlimə uyğun və sağlamlıqlarını qənaətbəxş saxlamağa imkan verən geyim dəsti verilməlidir. Bu paltar təhqiredici və alçaldıcı xarakterli olmamalıdır.

Paltar təmiz və sahmanda saxlanmalıdır. Dəyişəyin yuyulması, yaxud yeni dəyişək verilməsi gigiyena tələblərinə uyğun təmin olunmalıdır.

Məhbusun müəssisəni tərk etdiyi müstəsna hallarda, hakimiyyət orqanlarının icazəsi ilə, onun öz şəxsi paltarını, yaxud gözə çarpmayan digər paltar geyməsinə icazə verilməlidir.

Məhbuslara onlar həbsxanada olarkən mülki paltar geyməyə icazə verildikdə, onun təmiz və geyməyə yararlı olması üçün tədbirlər görülməlidir.

Hər bir məhbus milli, yaxud yerli normalara müvafıq olaraq ayrıca yatacaq ləvazimatı ilə təchiz edilmiş ayrıca çarpayı ilə təmin olunmalıdır. Yatacaq ləvazimatı verildiyi vaxt təmiz olmalı, sahmanda saxlanılmalı və təmiz qalması üçün kifayət qədər tez-tez dəyişdirilməlidir.

**Qidalanma**

Həbsxana idarəsi hər bir məhbusun sağlamlığına və qüvvəsini qorumaq üçün onu eyni saatlarda kifayət qədər qidalı, keyfiyyətli və yaxşı hazırlanmış yeməklə təmin etməlidir.

Hər bir məhbusun istəyəndə içməli suyu olmalıdır.

**Fiziki məşğələlər və idman**

Açıq havada işləməyən məhbusların hava əlverişli olduqda hər gün, heç olmasa, bir saat həyətdə münasib fiziki məşğələ etmək hüququ var.

Azyaşlılara və müvafiq vəziyyətdə olan münasib yaşlı məhbuslara fiziki məşq keçmək və məşğələ zamanı idman oyunu oynamaq imkanı verilməlidir. Bunun üçün lazımi meydançalar, qurğular və avadanlıq olmalıdır.

**Tibbi xidmət**

Bütün müəssisələrin sərəncamında, heç olmasa, psixiatriya sahəsində biliyi olan bir nəfər ixtisaslı tibb işçisi olmalıdır. Tibbi xidmət yerli, yaxud dövlət səhiyyə orqanları ilə sıx əlaqədə təşkil edilməlidir. O, psixiatriya

diaqnostikası xidmətinin və lazım gəldiyi yerlərdə, psixi cəhətdən normal olmayan məhbusların müalicəsini əhatə etməlidir.

Mütəxəssis xidmətinə ehtiyacı olan xəstə məhbuslar xüsusi müəssisəyə, yaxud adi xəstəxanaya keçirilməlidir. Həbsxana xəstəxanaları xəstələrə lazımi tibbi qulluq göstərilməsi və onların müalicəsi üçün zəruri olan avadanlığa, qurğu və dərmanlara, həmçinin kifayət qədər ixtisaslı personala malik olmalıdır.

Hər bir məhbusun ixtisaslı diş həkiminin xidmətindən istifadə etmək imkanı olmalıdır.

Qadın müəssisələrinin hamilə və zahı qadınlara qulluq etmək üçün xüsusi otaqları olmalıdır. Mümkün olan yerlərdə çalışmaq lazımdır ki, doğum həbsxanada yox, adi xəstəxanada baş versin. Uşaq həbsxanada doğularsa, bu hadisə doğum haqqında şəhadətnamədə göstərilməməlidir.

Məhbus qadınlara öz körpələrini yanlarında saxlamağa icazə verilən yerlərdə uşaqları ana qayğısı görmədiyi vaxtlarda yerləşdirmək üçün ixtisaslı personala malik körpələr evi yaradılması nəzərdə tutulmalıdır.

Hər bir məhbus qəbul edilərkən və sonralar lazım gəldikdə, onun fiziki və əqli cəhətdən xəstə olub-olmadığını müəyyən etmək, müvafiq tədbirlər görmək, hansısa yoluxucu xəstəliklərə mübtəla olması güman edilə bilən xəstələri təcrid etmək, onların yenidən tərbiyəsinə mane ola bilən fiziki, yaxud əqli naqisliyini üzə çıxarmaq, onların əmək qabiliyyətlərini müəyyənləşdirmək üçün tibbi müayinədən keçirilməlidir.

Məhbusların fiziki və peşə sağlamlıqlarının qayğısına həkim qalmalıdır. O, hər gün bütün xəstələri, xəstəlikdən şikayət edənləri və onun xüsusi diqqətinin yönəldildiyi hamını ya qəbul etməli, yaxud onların hamısına baş çəkməlidir.

Həkim məhbusun həbsi, yaxud hər hansı dustaqlıq şəraiti ilə əlaqədar fiziki, yaxud əqli müvazinətinin pozulduğunu və ya pozulmaq qarşısında olduğunu hesab etdiyi hər dəfə bu barədə direktora məruzə edir.

Həkim müntəzəm surətdə inspeksiya keçirməli və direktora aşağıdakı məsələlər barədə məruzə etməlidir:

a) yeməyin miqdarı, keyfiyyəti, hazırlanma və paylanma şəraiti;

b) müəssisənin və orada saxlanan şəxslərin gigiyenası və təmizliyi;

c) müəssisənin qızdırılması, sanitariyası, işıqlandırılması və ventilyasiyası;

d) məhbusların paltarının və yatacaq ləvazimatının yararlılığı, təmizliyi;

e) xüsusi personala həvalə edilmədiyi hallarda bədən tərbiyəsi və idman işlərinə dair qaydalara riayət edilməsi.

Direktor həkimin ona göndərdiyi məruzə və tövsiyələri nəzərə almalı və sonuncunun tövsiyələri ilə razıdırsa, onların yerinə yetirilməsi üçün dərhal tədbirlər görməlidir; bu tövsiyələr onun səlahiyyət çərçivəsindən kənara çıxırsa, yaxud onlarla razı deyilsə, o, dərhal həm öz məruzəsini, həm də həkimin tövsiyələrini yuxarı orqanlara təqdim etməlidir.

**İntizam və cəzalar**

Nizam-intizam qətiyyətlə gözləmlməli, lakin yalnız müəssisədə nəzarətin etibarlığını və birgə yaşayış qaydalarına riayət olunmasını təmin etmək üçün zəruri olan məhdudiyyətlər qoyulmalıdır.

Məhbuslara inzibati qaydada müəssisənin özünə xidmət göstərmək üçün işləmək cəzası verilməməlidir.

Lakin bu qayda sosial, tərbiyəvi, yaxud idman fəaliyyətinin müəyyən növlərinə görə məsuliyyətin yenidəntərbiyə məqsədilə yaradılan qrupların tərkibində nəzarət altında işləyən məhbusların öz üzərinə qoyulduğu özünüidarə sisteminin lazımi surətdə fəaliyyət göstərməsinə mane olmamalıdır.

Aşağıdakı amillər həmişə qanunla, yaxud səlahiyyətli inzibati hakimiyyət orqanlarının sərəncamı ilə müəyyən edilməlidir:

a) intizamsızlıq hərəkəti olan davranış;
b) məhbusa verilə biləcək cəza növü və müddəti;
c) cəzalandırmaq hüququ olan orqan.

Cəza yalnız belə qanuna, yaxud sərəncama görə verilə bilər, həm də, heç bir məhbus eyni hərəkətə görə təkrar cəzalandırıla bilməz.

Heç bir məhbusa onun təqsirləndirildiyi hərəkət barəsində ona əvvəlcədən xəbər verilmədən və özünə bəraət qazandırmaq üçün fıkrini açıqlamaq imkanı verilmədən cəza verilə bilməz. Səlahiyyətli orqanlar bu qəbildən olan hər bir işə diqqətlə baxmalıdır.

Zəruri və mümkün hallarda məhbusa özünü tərcüməçi vasitəsilə müdafiə etmək imkanı verilməlidir.

Bədən xəsarəti cəzası, qaranlıq kameraya salmaq və qəddar, qeyri-insani, yaxud insan ləyaqətini alçaldan cəza növləri intizamsızhq hərəkətlərinə görə cəza kimi qadağan olunmalıdır.

Ciddi həbs, yaxud qidanın azaldılmasını nəzərdə tutan cəzalar yalnız həkim məhbusu müayinədən sonra həmin cəzaya tab gətirə biləcəyini yazılı şəkildə təsdiq etdikdən sonra verilə bilər.

Həkim, cəzalandırılanlara fıziki, yaxud psixi vəziyyəti səbəblərindən cəzanın dayandırılmasım, yaxud dəyişdirilməsini zəruri hesab edərsə, bu barədə öz fıkrini direktora çatdırmalıdır.

**Sakitləşdirici vasitələr**

Qandal, dəli köynəyi, zəncir kimi sakitləşdirici vasitələrdən heç vaxt cəza vasitəsi kimi istifadə edilməməlidir. Bundan əlavə, qandaldan və zəncirdən, ümumiyyətlə, sakitləşdirici vasitə kimi istifadə etmək olmaz. Digər sakitləşdirici vasitələrdən ancaq aşağıdakı hallarda istifadə edilə bilər:

a) nəql edilərkən qaçmanın qarşısını almaq üçün - bu şərtlə ki, məhbuslar məhkəmə orqanları, yaxud inzibati orqanlar qarşısında duran kimi buxovlardan azad edilməlidir;

b) tibbi xarakterli səbəblərə görə və həkimin göstərişi ilə;

c) başqa tədbirlər təsirsiz olduqda, məhbusun özünə, yaxud başqalarına xətər, yaxud maddi zərər yetirilməsinə mane olmaq üçün direktorun əmri ilə; belə hallarda direktor həkimlə təcili məsləhətləşməli və yuxarı inzibati orqanlara məruzə təqdim etməlidir.

Sakitləşdirmə üsullarını və vasitələrini mərkəzi həbsxana idarəsi müəyyən edir. Bu vasitələr ciddi surətdə lazım olduğundan artıq tətbiq edilməməlidir.

**Məhbusların məlumatlandırılması və onların şikayət verməsi**

Hər bir məhbusa həbsxanaya qəbul edilərkən mənsub olduğu kateqoriyaya aid məhbuslarla davranış qaydalarına, müəssisənin intizam tələblərinə, habelə yol verilən informasiyam almaq və ərizə vermək vasitələrinə, həmçinin onu hüquq və vəzifələri barədə özünə hesabat verməsinə və həmin müəssisənin həyat şəraitinə uyğunlaşmasına imkan yaradan bütün digər məsələlərə dair yazılı informasiya verilir. Savadsız məhbuslar şifahi qaydada məlumatlandırılmalıdır.

Hər bir məhbus iş günlərində müəssisənin direktoruna yaxud onun vəkil etdiyi əməkdaşa ərizə vermək və şikayət etmək imkanına malik olmalıdır.

İnspeksiya vaxtı məhbuslar, mümkün olduqda, həbsxana inspektorlarına xahiş, yaxud şikayətlə müraciət etmək iqtidarında olmalıdır. Onlar inspektorla, yaxud inspeksiyanın hər hansı başqa əməkdaşı ilə direktorun, yaxud müəssisənin digər əməkdaşlarının iştirakı olmadan danışmaq hüququna malik olmalıdır.

Hər bir məhbus mərkəzi həbsxana orqanlarına, məhkəmə hakimiyyəti orqanlararına, yaxud digər səlahiyyətli orqanlara xahiş və şikayətlə müraciət imkanına malik olmalıdır; lakin məzmun baxımından senzuraya məruz qalmayan bu xahiş və şikayətlər lazımi formada tərtib edilməli və göstərilən kanallarla mərkəzi həbsxana idarəsinə, məhkəmə hakimiyyəti orqanlarına, yaxud digər səlahiyyətli orqanlara verilməlidir.

Səthi, məzmunsuz xahiş və şikayət halları istisna olmaqla, onlara tezliklə baxılmalı, yersiz ləngidilmədən cavab verilməlidir.

**Xarici aləmlə əlaqə**

Məhbuslara müntəzəm olaraq vaxtaşırı və lazımi nəzarət altında ailələri, təmiz adları ilə tanınan dostları ilə həm yazışma, həm də görüş vasitəsilə əlaqə saxlamaq imkanı verilməlidir.

Həbsdə olan əcnəbi vətəndaşların öz dövlətlərinin diplomatik və konsulluq əməkdaşları ilə əlaqə saxlaması üçün məqbul imkanlar təmin edilmelidir.

Məlum ölkədə diplomatik, yaxud konsulluq nümayəndələri olmayan məhbuslar, həmçinin qaçqınlar və vətəndaşlığı olmayan şəxslər onların mənafeyini qorumağı öz üzərinə götürmüş dövlətin diplomatik nümayəndələri ilə, yaxud onların müdafiəsi ilə məşğul olan istənilən milli, yaxud beynəlxalq orqanla əlaqə saxlamaq imkanına malik olmalıdır.

Ən vacib yeniliklər, qəzet və jurnalları, yaxud xüsusi həbsxana nəşrlərini oxumağa, radioya qulaq asmağa və mühazirələrdə iştirak etməyə icazə verilməklə, yaxud müdiriyyət orqanlarının icazə verdiyi və nəzarət etdiyi hər hansı digər vasitələrin köməyi ilə məhbuslara çatdırılmalıdır.

**Kitablar**

Hər bir müəssisənin bütün kateqoriyalara mənsub olan məhbusların istifadə edə biləcəyi kitabxanası olmalıdır. Burada istər əyləncəli, istərsə də bilgi məzmunlu kitablar olmalıdır. Bütün məhbuslar kitabxanadan istifadə etməyə həvəsləndirilməlidir.

**Din**

Eyni dinə etiqad edən kifayət qədər məhbus olan müəssisələrdə həmin dinə mənsub ixtisaslı ruhanilər təyin edilməli, yaxud onların orada müvafiq ayinləri icra etməsinə icazə verilməlidir. Əgər belə məhbusların sayı kifayət qədər çoxdursa və müvafiq imkan varsa, belə din xadimi tam iş gününə təyin edilməlidir.

Qaydalara əsasən təyin edilən, yaxud müəssisəyə buraxılan ixtisaslı din xadiminin müntəzəm surətdə dini ayinlər icra etmək və bunun üçün ayrılmış vaxtda vaxtaşırı öz dininə mənsub məhbusların yanma gedib, təklikdə onlarla dini mövzularda söhbət etmək imkanı olmalıdır.

Məhbusları hər hansı dinin ixtisaslı nümayəndəsi ilə təmas saxlamaq imkanından məhrum etmək olmaz. Digər tərəfdən, əgər məhbus din xadiminin onu yanma gəlməsinə etiraz edərsə, onun istəyinə tam hörmətlə yanaşılmalıdır.

Hər bir məhbus öz müəssisəsinin divarları arasında keçirilən dini ayinlərdə iştirak etməklə və yanında öz dininə məxsus dini kitablar saxlamaqla dini ehtiyaclarını, həyata keçirilməsi mümkün olduğu qədər, təmin etmək hüququna malik olmalıdır.

**Məhbusların əmlakının saxlanması**

Məlum müəssisədə mövcud qaydalara əsasən məhbusun öz yanında saxlamaq hüququ olmadığı pulu, qiymətli əşyaları, paltarı və digər əmlakı məhbus qəbul edilərkən özünün iştirakı ilə saxlamağa verilir. Bu əmlakın siyahısı məhbus tərəfindən imzalanır. Onun etibarlı şəraitdə saxlanması üçün tədbirlər görülməlidir.

Məhbus həmin müəssisədən azad edilərkən ona məxsus bütün əmlak və pul - xərcləməsinə icazə verilmiş məbləğ, onun müəssisədən kənara göndərilməsinə icazə verilmiş əşyalar, yaxud sanitariya mülahizələrinə görə məhv edilməsi zəruri sayılmış paltar istisna olmaqla - özünə qaytarılmalıdır. Məhbus ona məxsus pulu və əşyaları qol çəkib alır.

Bu qayda məhbusun həmin müəssisədə olarkən aldığı bütün pul vəsaitinə və əşyalara da aiddir.

Məhbusun üstündə dava-dərman varsa, onlarla nə etmək barəsində həkim qərar çıxarır.

**Ölüm, xəstəlik, keçirilmə və digər hallar haqqında bildiriş**

Məhbus öldükdə, ciddi surətdə xəstələndikdə, ağır yaralandıqda, yaxud psixi cəhətdən xəstələr üçün müəssisəyə keçirildikdə direktor bunu dərhal onun ərinə, yaxud arvadına - əgər yoxsa, - onun yaxın qohumuna və hər halda onun özünün əvvəllər göstərdiyi şəxsə bildirir.

Yaxın qohunlarından hər hansı birinin ölümü məhbuslara dərhal xəbər verilir. Yaxın qohumu ağır xəstə olduqda, şərait imkan verirsə, məhbusun mühafizə altında, yaxud sərbəst şəkildə ona baş çəkməsinə icazə verilməlidir.

Hər bir məhbusun həbs edilməsini, yaxud başqa müəssisəyə keçirilməsini ailə üzvlərinə dərhal xəbər vermək hüququ olmalıdır.

**Məhbusların yerdəyişməsi**

Məhbuslar həbs yerinə gətirilərkən, yaxud bir həbs yerindən digərinə keçirilərkən onları maksimal dərəcədə kənar baxışlardan yayındırmaq və təhqirlərdən, maraq göstərilməsindən və hər hansı aşkarlanma hallarından qorumaq üçün bütün tədbirlər görülməlidir.

Məhbusların kifayət qədər ventilyasiyası olmayan, yaxud işıqlandırılmayan, yaxud hər hansı digər fiziki cəhətdən həddindən artıq ağır şəraitdə daşınması qadağandır.

Məhbuslar idarənin hesabına daşınır, həm də onların nəql edilməsi hamı üçün eyni şəraitdə həyata keçirilir.

**Müəssisələrin personalı**

Həbsxana idarəsi orqanları bütün kateqoriyalardan olan işçilərin diqqətlə seçilməsinin qayğısına qalmalıdır. Belə ki, həbsxana müəssisələrinin yaxşı işləməsi bu əməkdaşların vicdanlığından, humanistliyindən, səriştəsindən və şəxsi keyfiyyətlərindən asılıdır.

Həbsxana müdriyyəti daim öz əməkdaşlarına və bütünlükdə ictimaiyyətə özünün böyük ictimai əhəmiyyətə malik iş gördüyü inamı aşılmalıdır. Bu inamın möhkəmlənməsi üçün o, ictimai informasiyanın imkanlarından istifadə etməlidir.

Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün həbsxana müdiriyyəti əməkdaşları dövlət qulluqçuları statusundan istifadə edən və yaxşı davrandıqları, səmərəli işlədikləri və onlara həvalə olunmuş vəzifələri fiziki cəhətdən yerinə yetirmək iqtidarında olduqları təqdirdə vəzifələrini saxlayacaqlarına əmin olan ixtisaslaşdırılmış həbsxana idarəsi işçiləri kimi tam iş vaxtına təyin edilməlidir. Onların maaşı elə təyin edilməlidir ki, bu işlə məşğul olmağı bacaran kişi və qadınları həmin işə cəlb etmək və saxlamaq mümkün olsun . Bu işin müstəsna çətin şəraitini nəzərə alaraq, həmin adamlara müvafiq güzəştlər edilməli və iş şəraiti yaradümalıdır.

Bu personal kifayət qədər savadlı və inkişaf etmiş olmalıdır.

İşə qəbul edilməzdən əvvəl onu ümumi və konkret vəzifələrini yerinə yetirməyə hazırlamaq, bundan sonra isə ondan nəzəri və praktik planda imtahan vermək tələb edilməlidir.

Bu əməkdaşlar işə qəbul ediləndən sonra bütün gələcək fəaliyyətləri boyu işdən ayrılmamaqla aralıq vaxtlarda təşkil edilən hazırlıq kursları keçməklə öz ixtisaslarını saxlamalı və artırmalıdırlar.

Həbs yerlərinin bütün əməkdaşları özlərini həmişə elə aparmalı və vəzifələrini elə yerinə yetirməlidirlər ki, məhbuslar üçün örnək olsunlar və onların hörmətini qazansınlar.

İmkan daxilində, ştat cədvəlinə kifayət qədər psixiatr, psixoloq, sosial işçilər, müəllimlər, peşə təlimçiləri kimi mütəxəssislər daxil edilməlidir.

Sosial işçilər, müəllimlər və peşə təlimçiləri daimi əməkdaş kimi təyin edilməlidir. Bununla belə yarımçıq iş günü ilə, yaxud ictimai əsaslarla işləyən şəxslərin də işlərinə biganəlik göstərilməməlidir.

Müəssisələrin direktoru vəzifəsinə xarakterinə, inzibati bacarığına, hazırlığına və təcrübəsinə görə kifayət qədər ixtisaslı şəxslər təyin edilməlidir.

Direktor tam ştatla işləyərək bütün vaxtını ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə sərf etməlidir.

O, ya ona həvalə olunmuş müəssisənin ərazisində, ya da onun bilavasitə yaxınlığında yaşamalıdır.

Bir direktora eyni zamanda iki və daha çox müəssisənin idarə olunması həvalə edildikdə o, həmin müəssisələrin hər birinə tez-tez baş çəkməlidir. Həmin müəssisələrə rəhbərlik orada yaşayan məsul əməkdaşa tapşırılmalıdır.

Müəssisənin direktoru, onun müavini və əksər əməkdaşları məhbusların əksəriyyətinin danışdığı, yaxud onların əksəriyyətinin başa düşdüyü dili bilməlidir.

Lazım olan yerlərdə tərcüməçinin xidmətindən istifadə edilməlidir.

Tam ştatla işləyən bir və ya bir neçə həkimin olmasını doğruldan iri müəssisələrdə onlardan, heç olmasa, biri ya müəssisənin özündə, ya da bilavasitə onun yaxınlığında yaşamalıdır.

Həkim digər müəssisələrə hər gün baş çəkməlidir; həm də həkim böhranlı hallarda dərhal çağrılması üçün, kifayət qədər yaxınlıqda yaşamalıdır.

Həm kişi, həm də qadınların saxlandığı müəssisələrdə qadın şöbəsi məsul qadın əməkdaşa həvalə olunmalı, bu şöbənin bütün otaqlarının açarları saxlanmaq üçün ona təhvil verilməlidir.

Kişi əməkdaşlar qadın şöbəsinə yalnız qadın əməkdaşların müşaiyəti ilə buraxılır.

Qadın məhbusların qayğısına qalmaq və onlara nəzarət etmək yalnız qadın əməkdaşlara həvalə edilir. Lakin bu, kişi əməkdaşlara, məsələn həkim və müəllimlərə öz vəzifələrini qadın müəssisələrində, yaxud digər müəssisələrin qadınlar üçün ayrılmış şöbələrində yerinə yetirmələrinə mane olmamalıdır.

Müəssisələrin personalının məhbuslarla münasibətlərində zorakılığa yalnız özünümüdafiə hallarında, qaçmağa cəhd, həmçinin qüvvədə olan qanun və qaydalara əsaslanan əmrlərə aktiv, yaxud passiv müqavimət göstərildiyi hallarda əl atmaq hüququ var. Zorakılığa əl atan əməkdaşlar zəruriyyət həddində dayanmalı, bu qəbil münaqişə barəsində müəssisənin direktoruna dərhal xəbər verməlidirlər.

Həbsxana əməkdaşları aqressiv niyyətlərini büruzə verən məhbusların qarşısını almağa imkan verən xüsusi fiziki hazırlığa malik olmalıdırlar.

Funksiyalarını yerinə yetirərkən məhbuslarla bilavasitə təmasda olan əməkdaşlar müstəsna hallarda silah gəzdirməlidir, həm də yalnız müvafiq hazırlıq görmüş əməkdaşların silah gəzdirmək hüququ olmalıdır.

**İnspeksiya**

Həbs cəzası müəssisələri və xidmətlərində səlahiyyətli hakimiyyət orqanlarının təyin etdiyi ixtisaslı və təcrübəli inspektorlar tərəfindən müntəzəm surətdə inspeksiya keçirilməlidir. İnspektorlar, o cümlədən, həbs yerlərinin qüvvədə olan qanun və sərəncamlara müvafiq surətdə idarə olunduğunu və onların işinin həbs cəzası və islah xidmətləri qarşısında qoyulan tələblərə uyğun olduğunu yəqin etməlidirlər:

## 2.2. Xüsusi kateqoriyalara tətbiq edilən qaydalar

### 2.2.1. Məhkum edilmiş məhbuslar

**Rəhbər prinsiplər**

Aşağıda ifadə edilən rəhbər prinsiplər həbs cəzası müəssisələrinin idarə olunmalı olduqları üslubu və həmin müəssisələrin bu mətnin ikinci abzasından çıxış edərək yerinə yetirilməsinə səy göstərməli olduqları məqsədləri əks etdirir.

Qanun pozucusunu ətraf aləmdən təcrid edən həbs və digər tədbirlər artıq onu azadlıqdan məhrum etməklə öz müqəddəratmı təyin etmək hüququndan məhrum etdiyinə görə ona əzab verir. Ona görə də özünü doğruldan seqreqasiya, yaxud intizam mülahizələri istisna olmaqla, həbsxana bu vəziyyətdən doğan iztirabları dərinləşdirməməlidir.

Həbs cəzasının, yaxyd azadlıqdan məhrumetmə hökmünün məqsədi və bəraəti son nəticədə cəmiyyəti müdafiə etmək və cəmiyyət üçün təhlükəli olan cinayətlərin qarşısını almaqdır.

Bu məqsədə o halda çatmaq mümkündür ki, qanun pozucusu hətta cəza müddətini çəkdikdən və normal cəmiyyət həyatına qayıtdıqdan sonra nəinki qanunçuluça tabe olmağa və öz yaşayışını təmin etməyə hazır olsun, həm də bunu bacarsın.

Bunun üçün müəssisə bütün islah, tərbiyə qüvvələrindən, əxlaqi və mənəvi imkanlardan və sərəncamında olan və münasib saydığı yardım növlərindən, hər məhbusun yenidən tərbiyəsinə olan ehtiyac nəzərə alınmaqla, istifadə etməlidir.

Müəssisədə qəbul edilmiş rejim məhbuslarda məsuliyyət hissini və insan ləyaqətini dərketməni zəiflədən həbsxana həyatı ilə azadlıqdakı həyat arasındakı fərqi minimuma endirməyə yönəldilməlidir.

Cəza müddətinin başa çatması ərəfəsində məhbusun tədricən cəmiyyət həyatına qayıtması üçün tədbirlər görülməsi arzu olunur. Bu məqsədlə hər bir qanun pozuntusunun xüsusiyyətləri nəzərə alınmaqla azad olunmalılar üçün ya müəssisənin özündə, ya da başqa bir müəssisədə xüsusi rejim yaratmaqla, yaxud məhbusları sınaq müddətinə, onlar həmin müddətdə yenə də nəzarət altında qalmaqla - bu nəzarətin polis hakimiyyəti orqanlarına tapşırılması və səmərəli sosial yardımla əlaqələndirilməsi şərtilə - nail olmaq mümkündür.

Məhbuslarla davranışda onları cəmiyyətdən təcrid olunmaları deyil, cəmiyyətin üzvü olaraq qalmaqda davam etmələrini göstərən cəhətlər nəzərə çatdırmalıdır. Buna görə də məhbusları cəmiyyət həyatına qaytarmaq məqsədilə ictimai təşkilatlar mümkün olan hər yerdə müəssisələrin personah ilə əməkdaşlığa cəlb edilməlidir. Hər bir müəssisədə məhbusun öz ailəsi ilə və ona xeyir gətirə bilən sosial təşkilatlarla arzu edilən əlaqələr saxlaması və bu əlaqələrin möhkəmləndirilməsi qayğısına qalan sosial işğilər olmalıdır. Məhbusların mülki mənafe, sosial təminat və digər sosial güzəştlər sahəsində qanuna və onlar barəsində hökmün şərtlərinə uyğun olan maksimum hüquqlarını özlərində saxlaması üçün tədbirlər görülməlidir.

Müəssisənin tibb xidməti məhbusun yenidən tərbiyəsinə əngəl törədə bilən fiziki və psixi xəstəliklərin, yaxud qüsurların aşkara çıxarılması və müalicəsi qayğısına qalmalıdır. Bu məqsədlə müəssisənin bütün lazımi terapevtik, cərrahi və psixiatrik xidmət imkanlarından istifadə olunmalıdır.

Bu prinsiplərin həyata keçirilməsi məhbuslara fərdi yanaşılmasını və beləliklə, onların qruplar üzrə çevik təsnifat sisteminin olmasını tələb edir. Ona görə və belə qrupları onların hər biri ilə işləmək münasib olan ayrı-ayrı müəssisələrdə yerləşdirmək arzu olunur.

Bu müəssisələrdə hər bir qrupun təhlükəsizliyi üçün eyni tədbirlərin görülməsi məcburi deyil. Hətta, qruplardan asdı olaraq, bu tədbirlərin sərtliyini dərəcələrə bölmək olar. Diqqətlə seçilmiş məhbusları ən əlverişli yenidən tərbiyə şəraiti qaçma hallarının qarşısını almaq üçün fiziki vasitələrə deyil, şəxsi intizama istinad edilən açıq müəssisələrdə mövcuddur.

Məhbuslara fərdi yanaşmanın tətbiq edilməsi üçün müəssisədə onların sayının həddindən çox olmaması arzu olunur. Bəzi ölkələrdə belə hesab edilir ki, bu qəbil müəssisələrin məskunlarının sayı 500 nəfərdən çox olmamalıdır. Açıq müəssisələrdə mümkün qədər az məhbus saxlanmalıdır.

Digər tərəfdən, həbsxanalar onlarda lazımi imkanları və xidməti təmin etmək üçün kifayət edəcək qədər sahəyə malik olmalıdır.

Cəmiyyətin vəzifəsi məhbusun azad edilməsi ilə bitmir. Ona görə də azad edilənlərin qurbanı olduqları xurafatla mübarizə aparan və onların yenidən cəmiyyet həyatına qoşulmasına əməli kömək edən dövlət orqanlarının və özəl orqanların olması zəruridir.

**Məhbuslarla davranış**

Həbs cəzasına, yaxud buna oxşar digər cəzaya məhkum olunmuş şəxslərlə davranışda onların aldıqları hebs cəzası müddətinin davamiyyəti nəzərə alınmaqla, onlara qanuna tabe olmaq və öz yaşayışmı azad olunduqdan sonra təmin etmək istəyi aşılamağa çalışmaq lazımdır. Məhbuslarla davranış onlarda özlərinin ləyaqət hissini və məsuliyyətini dərk etməsini möhkəmləndirməlidir.

Bu məqsədlə məhbusun fərdi ehtiyacları, onun sosial keçmişi, cinayətinin tarixi, fiziki və əqli qabiliyyət və imkanlan, temperamenti, həbs müddətinin uzunluğu və azad edildikdən sonrakı imkanları nəzərə alınmaqla bütün münasib tədbirlər - mümkün olan ölkələrdə dini xidmət, təlim, peşə hazırlığı və yönümü, konkret sosial halların öyrənilməsi, işədüzəltmə sahəsində məsləhətləşmə, bədən tərbiyəsi və xarakterinin möhkəmləndirilməsi daxil olmaqla - görülməlidir.

Direktor uzun müddətə məhkum edilmiş hər bir məhbus barəsində o, qəbul edildikdən sonra, mümkün qədər tezliklə, bundan əvvəlki bənddə göstərilən məsələlərə dair müfəssəl məlumat almalıdır. Bu məlumatlar, imkan daxilində, psixiatriyadan baş çıxaran həkimin məhbusun fiziki və psixi vəziyyətinə dair məruzəsində də həmişə olmalıdır.

Bu məruzələr və məhbusa dair digər sənədlər onun şəxsi işinə tikilir. İş bütün yeni melumatlarla tamamlanmalı və elə saxlanmalıdır ki, müvafiq işçilər, lazım gəldikdə, ona müraciət edə bilsinlər.

Təsnifat və fərdiləşdirmə

Təsnifatın məqsədləri aşağıdakılardır:

a) məhbusları cinayətkar keçmişi, yaxud xarakterinin mənfi cəhətləri ilə onlara pis təsir göstərmək tehlükəsi doğuranlardan ayırmaq;

b) məhbusları cəmiyyət həyatına qaytarmaq məqsədilə onlarla aparılan işi asanlaşdıran kateqoriyalara bölmək.

Müxtəlif kateqoriyalara mənsub məhbuslarla iş imkan daxilində müxtəlif müəssisələrdə, yaxud eyni müəssisələrin müxtəlif şöbələrində aparılmalıdır.

Kifayət qədər uzun müddətə məhkum edilmiş hər bir məhbus qəbul edildikdən və xarakteri öyrənildikdən sonra ən qısa müddətdə fərdi tələbatlarını, bacarığını və həvəsini nəzərə almaqla, onunla iş proqramı hazırlanmalıdır.

**Güzəştlər**

Hər bir müəssisədə güzəştlər sistemi olmalı və müxtəlif kateqoriyalardan olan məhbusları yaxşı davranışa həvəsləndirmək, onlarda məsuliyyət hissini inkişaf etdirmək, yenidən tərbiyə olunmağa maraq aşılamaq və onların əməkdaşlığına nail olmaq üçün həmin kateqoriyalarla müxtəlif davranış üsulları işlənib hazırlanmalıdır.

**Əmək**

Məhbusların əməyi onlara əzab verməməlidir.

Bütün məhbuslar həkimin təsdiq etdiyi fiziki və psixi qabiliyyətlərinə müvafiq olaraq işləməyə borcludur.

Məhbuslara normal iş gününü dolduran faydah iş tapşırılmalıdır.

Məhbusların təmin etdikləri iş, mümkün qədər, onlara azad edildikdən sonra namuslu əməklə məşğul olmaq üçün ixtisaslarını artırmağa, yaxud ixtisas əldə etməyə imkan verməlidir.

Faydalı peşələri onlardan bəhrələnməyi bacaran məhbuslara, xüsusilə yeniyetmələrə öyrətmək lazımdır.

Məhbuslar, peşənin düzgün seçilməsinə və idarənin tələblərinə və müəssisədəki intizama uyğundursa, özlərinin görmək istədikləri iş yerinə yetirmək imkanına malik olmalıdlr.

Müəssisədə işlərin təşkili və üsulları onun divarları arxasında qəbul olunmuş təşkilat və üsullara maksimum yaxınlaşdırmalıdır ki, məhbuslar azadlıqdakı iş şəraitinə alışsınlar.

Lakin məhbusların mənafeyi və onların peşə hazırlığı həbsxana istehsalından gəlir götürmək mülahizələrinə tabe edilməməlidir.

Müəssisələrdə sənayeyə və kənd təsərrüfatına xas olan fəaliyyəti rəhbərlik xüsusi podratçılara deyil, həbsxana idarəsinin özünə həvalə edilməlidir.

Müəssisə tərəfindən nəzarət edilməyən işi yerinə yetirən məhbuslar birincinin əməkdaşlarının daimi nəzarəti altında olmalıdır. Məhbusların başqa hökumət idarələri üçün iş görmək halları istisna olmaqla, sahibkarlar məhbusların əməyinin məhsuldarlığı nəzərə alınmaqla, müvafiq işə görə tam əmək haqqını müəssisəyə ödəməlidirlər.

Azad fəhlələrin təhlükəsizliyinin və sağlamlığının mühafizəsinə aid qaydalar müəssisələrə də tətbiq edilməlidir.

İstehsalatda şikəstlik aldıqda, yaxud peşə xəstəliklərinə görə məhbuslara kompensasiya ödənilməlidir. Bu kompensasiyanın şərtləri qanunla azad fəhiələr üçün nəzərdə tumlduğundan əlverişsiz olmamalıdır.

İş gününün, yaxud həftəsinin uzunluğu, azad fəhlələrin əmək şəraiti sahəsində yerli qayda və adətlər nəzərə alınmaqla, qanunla yaxud inzibati qərarlarla müəyyən edilir.

İş vaxtı elə bölünməlidir ki, məhbusların, heç olmasa, həftədə bir dəfə istirahət günü olsun və onların təhsil və yenidən tərbiyəsi üçün lazım olan digər fəaliyyət növləri ilə məşğul olmağa kifayət qədər vaxtlan olsun.

Məhbuslar müəyyən sistem çərçivəsində öz əməkləri üçün ədalətli haqq almalıdır.

Bu sistemə müvafiq olaraq, məhbuslar qazandıqları pulların, heç olmasa, bir hissəsinə icazə verilən şəxsi məişət əşyaları almaq və bir hissəsini ailələrinə göndərmək imkanma malik olmalıdır.

Bu sistem, həmçinin, məhbusların qazandıqları pulların bir hissəsinin məhbus azad edilərkən ona qaytaran müdriyyətdə saxlanmasını nəzərdə tutmalıdır.

**Təhsil və istirahət**

Təhsildən bəhrələnməyi bacaran məhbuslara - icazə verilən ölkələrdə dini tərbiyə daxil olmaqla - onu davam etdirmək imkanı təmin edilməlidir. Savadsızların və gənclərin təlimi icbari sayılmalı və həbsxana idarəsi orqanlan buna xüsusi diqqət yetirməlidir.

Məhbuslar təlimdən azad edildikdən sonra da çətinlik çəkmədən oxuya bilmələri üçün mümkün qədər, ölkədə mövcud olan təhsil sisteminə uyğunlaşdırılmalıdır.

Bütün müəssisələrdə məhbuslar onların fiziki və psixi sağlamlığı naminə istirahətlə və mədəni fəaliyyət göstərmək imkanı ilə təmin edilməlidir.

**Xarici aləmlə əlaqə və azad edildikdən sonra himayə**

Məhbusla ailəsi arasında hər iki tərəfin mənafeyinə xidmət edən əlaqələrin saxlanmasına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Həbs müddətinin lap əvvelindən məhbus azad edildikdən sonra onu gözləyən gələcək haqqında düşünmək lazımdır. Buna görə də məhbusa müəssisənin divarlan xaricindəki şəxslərlə, yaxud idarələrlə onun ailəsinin mənafelərinin qorunmasına və azad edildikdən sonra cəmiyyət həyatına qoşulmasına imkan yaradan əlaqələr saxlanmasına və onları möhkəmləndirməsinə yardım göstərməlidir.

Azad edilən məhbuslara cəmiyyətdə öz yerlərini tutmaqda kömək edən hökumət orqanları, yaxud digər orqanlar və idarələr, mümkün və zəruri olan yerlərdə, belə məhbusların lazımi sənədlər və şəxsiyyətlərini təsdiq edən vəsiqələr almalarının, yaralı mənzil tapmaq, həmin iqlimə və fəslə münasib kifayət qədər paltarının, təyinat yerlərinə getmək və bilavasitə azad edildikdən sonrakı dövr ərzində yaşamaq üçün kifayət qədər vəsaitləri olmasının qayğısına qalmalıdır.

Bu idarələrin vəkil edilmiş nümayəndələrinin həbsxana müəssisələrinə getmək və orada dustaq saxlanan şəxslərə baş çəkmək imkanları olmalıdır. Onlarla məhbusların həbs müddətinin lap əvvəlindən gələcək həyatlarının perspektivləri barədə məsləhətləşmələr aparılmalıdır.

Bu qəbil idarələrin işindən maksimum səmərəli istifadə olunmasını təmin etmək üçün həmin işləri mərkəzləşdirmək, yaxud əlaqələndirmək arzu olunur.

### 2.2.2. Ruhi xəstələr, kəmağıl məhbuslar

Ruhi xəstə sayılan şəxslər həbs cəzasına məruz qalmamalıdır. Ona görə də onların təcili surətdə ruhi xəstələr üçün nəzərdə tutulan müəssisələrə keçirilməsi barədə tədbirlər görülməlidir.

Digər psixi xəstəliklərə, yaxud əqli qüsurlara mübtəla olan məhbuslar nəzarətə alınmalı və xüsusi müəssisələrdə həkimlərin rəhbərliyi ilə müalicə edilməlidir.

Belə məhbuslar həbsxanada olduqları vaxt daim xüsusi həkim nəzarətində olmalıdır.

Həbs cəzası müəssisələrində işləyən tibb, yaxud psixiatriya xidmətləri ehtiyacı olan bütün məhbusların psixiatrik müalicəsini təmin etməlidir.

Lazım gəldikdə, səlahiyyətli idarələrlə əməkdaşlıqda buraxılmış məhbuslara psixiatrik qulluq, eləcə də sosial-psixiatrik himayə göstərilməsinin təmin olunması arzu edilir.

### 2.2.3. Həbsdə olan, yaxud məhkəmə gözləyən şəxslər

Cinayət törətməkdə ittiham olunaraq tutulan, yaxud həbsdə olan və ya polis məntəqəsində, yaxud həbsxana müəssisələrində saxlanılan, lakin məhkəməyə çağırılmamış, məhkum edilməmiş şəxslər qaydalarda istintaqda olan məhbus adlandırılır.

İstintaqda olan məhbuslar müqəssir sayılmır və onlarla buna müvafiq davranılmalıdır.

Şəxsiyyət azadlığına, yaxud istintaqda olan məhbusların davranışına aid prosedurları müəyyən edən qanunlara riayət olunmaqla, bu qəbil məhbuslara əsas qaydaları aşağıdakı qaydalarda şərlı edilən xüsusi rejim tətbiq edilməlidir.

İstintaqda olan məhbuslar məhkum olunmuşlardan ayrı saxlanmalıdır.

İstintaqda olan gənc məhbuslar yaşlılardan ayrı və prinsipcə ayrı müəssisələrdə saxlanmalıdır.

İstintaqda olanlar gecələr iqlim şəraiti ilə izah edilən yerli xüsusiyyətlər nəzərə alınmaqla, ayrıca binada, təklikdə saxlanmalıdır.

Müəssisədə qəbul edilmiş qaydanı pozmursa, istintaqda olan məhbusların ya həbsxana müdiriyyəti orqanları, ya onların ailə üzvləri, ya da dostları vasitəsilə onların öz hesabına kənardan yemək almasına - onlar bunu istəyirsə - icazə verilə bilər. Əks halda, məhbusun yeməyini müəssisənin müdiriyyəti təmin edir.

İstintaqda olan məhbusların təmiz saxlanmaq və ədəbli xarakterdə olmaq şərtilə, mülki paltar geymək hüququ var.

İstintaqda olan məhbus həbsxana paltarı geyərsə, o, məhkum edilmişlərin geyimindən fərqlənməlidir.

İstintaqda olan bütün məhbuslara həmişə işləmək imkanı verilməlidir. Lakin əmək onlar üçün icbari sayılmır. Belə məhbus işləmək istədikdə onun əməyi ödənilməlidir.

İstintaqda olan məhbusların öz vəsaitlərinə, yaxud üçüncü şəxslərin hesabına kitab, qəzet, yazı ləvazimatı və onların vaxtlarını keçirməsinə imkan verən əşyalar almasına - ədalət mühakiməsinin icrasının mənafeyinə, təhlükəsizliyin tələblərinə və müəssisədə həyatın normal gedişinə uyğun olmaq şərtilə - imkanı olmalıdır.

İstintaqda olan məhbusların, onlar həbsxanada olduqları vaxt öz şəxsi həkimlərinin, yaxud diş həkiminin xidmətindən istifadə etmələrinə - onların bu barədə xahişləri əsaslıdırsa və onlar bununla əlaqədar xərcləri ödəmək iqtidarındadırlarsa, - icazə verilməlidir.

İstintaqda olan məhbusların həbs edilmələri faktıtnı dərhal ailəsinə bildirmək imkanı, qohumları, dostları ilə məqbul təmasda olmaq, onlan həbsxanada qəbul etmək - bu vaxt yalnız ədalət mühakiməsinin lazımi qaydada icrası, təhlükəsizliyə riayət edilməsi və müəssisənin normal işinin təmin edilməsi üçün zəruri olan məhdudiyyətlərə və nəzarətə məruz qalmaqla - imkanından istifadə etmək üçün şərait yaradılmalıdır.

İstintaqda olan məhbuslar özlərini müdafiə məqsədilə, mümkün olan bütün yerlərdə pulsuz hüquq məsləhəti almağa müraciət etmək, onun

müdafiəsini üzərinə götürmüş hüquq məsləhətçisi ilə həbsxanada görüşmək, gizli təlimatlar hazırlamaq və ona vermək hüququna malik olmalıdır. Bu məqsədlə, onların tələbi ilə ixtiyarlarına yazı ləvazimatı verilməlidir. Məhbusun onun hüquq məsləhətçisi ilə görüşü göz qabağında, lakin polis, yaxud həbsxana əməkdaşlarının eşidə bilməsi xaricində olan məsafədə keçirilir.

**2.2.4. Mülki işlər üzrə məhbuslar**

Qanunun borc öhdəliklərini yerinə yetirməməyə, yaxud məhkəmənin sərəncamı ilə hər hansı mülki işə görə həbs etməyə icazə verdiyi ölkələrdə bu qaydada həbs edilmiş şəxslər etibarlı nəzarət və lazımi nizam-intizamın qorunması üçün zəruri olduğundan sərt davranışa məruz qalmamalıdır. Belə şəxslərlə istintaqda olan məhbuslardan daha az yumşaq davranmamalıdır, bir fərqlə ki, onların əməyi məcburi ola bilər.

**2.2.5. İttiham irəli sürülmədən tutulmuş, yaxud həbsxanaya salınmış şəxslər**

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsinin müddəalarına xələl gətirmədən, ittiham irəli sürülmədən tutulmuş, yaxud həbsxanaya salınmış şəxslərdən I-ci hissədə və II-ci hissənin G bölməsindəki şəxslər üçün nəzərdə mtulmuş müdafiə ilə təmin edilirlər.

II-ci hissənin A bölməsinin müvafiq müddəaları da, onların tətbiqi həbs edilmiş bu qəbil xüsusi şəxslər qrupuna xeyir gətirə biləcək hallarda - islah, yaxud yenidən tərbiyə üsullarını hər-hansı bir cinayətə görə məhkum olunmamış şəxslərə tətbiq edilməsini nəzərdə tutan tədbirlər görülməsi şərtilə - tətbiq edilə bilər.

**3. Avropa penitensiar qaydaları**

**(Məhbuslarla davranış üzrə Avropa qaydalarının minimal standartlarınn yenidən baxılmış mətni)**

**Preambula**

Bu qaydaların məqsədi aşağıdakılardır:

a) penitensiar müəssisələrin idarə olunması nöqteyi-nəzərindən həbs olunmuşlar üçün humanist şəraiti təmin etmək və azadlıqdan məhrum olunmuşlarla müasir və mütərəqqi sistem çərçivəsində islah təsiri göstərə bilən ümumi davranışın minimal tələblərini müəyyən etmək;

b) penitensiar müəssisənin müdiriyyətini təsirli və müasir prinsiplərə, ədalətin təmin olunmasına əsaslanan idarəetməyə və praktiki fəaliyyətdə son məqsədə nail olmaq kimi siyasəti həyata keçirməyə təhrik etmək;

c) penitensiar müəssisələrin əməkdaşları arasında işə peşəkar münasibəti, onların əməyinin sosial-mənəvi vacibliyini təlqin etmək, bütövlükdə cəmiyyətin, həmçinin tabelikdə olan məhbusların rifahı naminə çalışmalarına və peşələrindən razı qalmalarına imkan yaratmaq;

ç) azadlıqdan məhrum etmə yerlərinin müdiriyyətinə və yoxlama xidmətlərinə əldə olunmuş nəticələr və onların yaxşılaşdırılması imkanları haqqında düzgün fikir söyləmək üçün əsas və real meyarları müəyyən etmək.

Qeyd etmək lazımdır ki, bu qaydalar nümunə deyil və ptaktikada Avropanın bir çox ölkələrinin cəza-icra sistemləri daha yüksək standartlara nail olmuşlar, digərləri isə onların təcrübəsindən yararlanmaq istəyirlər. O hallarda ki, qaydaların tətbiqi çətinliklərlə üzləşir və ya praktiki problemlər yaradır - Avropa Şurası malik olduğu lazımi təcrübə və vasitələrlə tövsiyələr verə bilər və bu sahədə müxtəlif penitensiar müəssisələrin əldə etdikləri əməli-praktiki nailiyyətlərlə onları tanış edə bilər.

Bu qaydalarda insan ləyaqəti məfhumuna, azadlıqdan məhrum etmə yerləri müdiriyyətinin humanist və təsirli fəaliyyət göstərməsinə, bu müəssisələrin işçilərinin oynadığı rolun əhəmiyyətinə və idarəetmənin müasir üsullarına xüsusi dəstək verilir.

Bu qaydalar azadlıqdan məhrum etmə yerlərinin idarə edilməsinin bütün səviyyələrində işçilər üçün praktiki dərslik kimi xidmət etmək, onların fəaliyyətini həvəsləndirmək və istiqamətləndirmək məqsədi ilə hazırlanmışdır.

Bu qaydalara əlavə edilən şərhlər onların düzgün başa düşülməsi və dərk edilməsi, onlara lazımi çeviklik verilməsi, təcrübədə daha yaxşı həyata keçirilməsi məqsədi daşıyır.

### 3.1. Əsas prinsiplər

Azadlıqdan məhrum olmuş insan şəxsiyyətinə hörməti təmin edən, bu qaydalara uyğun saxlama şəraitində və əxlaqi mühitdə həyata keçirilməlidir.

Bu qaydalar qərəzsiz tətbiq edilir. Bu zaman irqe, dərinin rənginə, cinsə, dilə, dinə, siyasi və digər əqidəyə, milli, sosial mənşəyə, iqtisadi və ya digər statusa əsaslanan əlamətlərə görə ayrı-seçkiliyə yol verilmir. Məhbusun mənsub olduğu qrupun dini etiqadına və əxlaqi prinsiplərinə hörmət olunmalıdır.

Məhbuslara göstərilən islah təsiri, onların sağlamlığını və ləyaqətini cəza müddətinin imkan verdiyi dərəcədə saxlamaq, onlara azad edildikdən sonra cəmiyyətə inteqrasiya (uyğunlaşma) olunmağa, qanunçuluğun tələblərinə uyğun hərəkət etməyə, həyati ehtiyaclarını öz gücləri ilə yerinə yetirmək üçün təcrübə qazanmağa kömək göstərmək məqsədi daşıyır.

Səlahiyyətli orqanların təyin etdikləri peşəkar və təcrübəli müfəttişlər mütəmadi olaraq penitensiar müəssisələrin idarə olunmasının qüvvədə olan qanunlara və normativ aktlara, o cümlədən, cəza-icra sistemləri qarşısında duran məqsədlərə və bu qaydalarla müəyyən olunan tələblərə nə dərəcədə cavab verməsini yoxlayırlar.

Məhbusların şəxsi hüquqlarının müdafiəsi, xüsus ilə intizam cəzalarının qanuni tətbiq edilməsi, milli hüquqa əsasən məhkəmə və ya məhbuslara baş çəkmə səlahiyyətli və penitensiar müəssisələrin müdriyyətinə aid olmayan orqanlar tərəfindən həyata keçirilən nəzarət ilə təmin olunur.

Bu qaydalar müvafiq dövlət dillərində işçi heyətinin nəzərinə çatdırılır.

Məhbuslara qaydalar həmin dillərdə və ya əgər bu məqsədəuyğun, mümkündürsə, digər dillərdə təqdim olunur.

### 3.3. Penitensiar müəssisələrin idarə olunması

**Məhbusların qəbulu və qeydiyyatı**

Heç kəs tələb olunan, qanuni qüvvəyə minmiş lazımi sənədlər olmadan penitensiar müəssisəyə qəbul edilə bilməz.

Məhbusun həbsə alınmasına və qəbuluna aid olan bütün əsas məlumatlar dərhal qeydiyyata alınır.

Qəbul olunan hər bir məhbus haqqında bütün saxlanma yerlərinə tam həcmdə və etibarlı yerdə aşağıdakı məlumatlar saxlamhr:

a) məhbusun şəxsiyyəti haqqında;
b) qəbul üçün əsas və qərarı qəbul edən səlahiyyətli orqan haqqında;
c) qəbul və azad edilmənin günü və saatı.

Qəbul edilmə prosesi bu qaydaların əsas prinsiplərinə müvafiq həyata keçirilir və elə apanlır ki, məhbuslara təxirəsalınmaz şəxsi problemlərin həllində köməklik göstərilsin.

Müəyyən müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş məhbusa qəbul edildikdən sonra, qısa vaxtda onun vətəndaşlıq vəziyyəti haqqında məlumat daxil olmaqla, ətraflı şəxsi iş açılır, onu gələcək azadlığa hazırlayan tədris proqramı hazırlanır, direktora məlumat üçün və ya tələb olunursa, təsdiq üçün təqdim edilir.

Şəxsi işdə tibb işçilərinin və məhbus üçün bilavasitə cavabdeh olan işçi heyətinin məlumatlarının olması vacibdir.

Hər bir məhbus haqqında məlumatlar, məxfüik nəzərə alınmaqla, onun şəxsi işində saxlanılır, mütəmadi təzələnir və yalnız bu işə xüsusi müvəkkil edilmiş şəxslər üçün açıqdır.

**Məhbusların bölüşdürülməsi və təsnifatı**

Məhbusların müxtəlif penitensiar müəssisələrə bölüşdürülməsi vəya saxlanma rejiminin seçilməsi zamanı məhbusun məhkəmə və ya qanunla müəyyən edilmiş hüquqi vəziyyəti (istintaq altında olması və ya məhkum edilməsi, ilk dəfə məhkum edilməsi və ya residivist olması, qısa və ya uzun müddətə azadlıqdan məhrum edilməsi), islah təsirinin xüsusi tələbləri, səhhəti, cinsi və yaşı nəzərə alınır.

Kişi və qadınlar, bir qayda olaraq ayrı saxlanırlar, lakin onlar üçün nəzerdə tutulmuş və təsdiq olunmuş islah təsiri proqramına əsasən təşkil olunmuş işlərdə birlikdə iştirak edə bilərlər.

İstintaq altında olanlar, birlikdə saxlanmaq haqqında razılıq və ya onlar üçün təşkil olunmuş səmərəli fəaliyyətdə iştirak halları istisna olmaqla, bir qayda olaraq cəza çəkən məhbuslardan ayrı saxlanırlar.

Gənc məhbuslar onları maksimum mənfi təsirdən qoruyan və yaşlarının tələbatmı nəzərə alan şəraitdə saxlanılır.

Məhbusların ilkin və təkrar təsnifatının məqsədi aşağıdakılardır:

a) cinayətkar keçmişinə və ya şəxsi keyfıyyətlərinə görə seçilən məh-buslan, o cümlədən, digər məhbuslara çox zərərli təsir göstərə bilənləri ayırmaq;

b) idarəetmə və təhlükəsizlik tədbirləri nəzərə alınmaqla məhbusların, onlara göstərilən islah təsirinin və sosial uyğunlaşmanın asanlaşması baxımından yerləşdirilməsi.

Müxtəlif saxlanma rejimlərindən istifadə etmək və məhbusların müəyyən olunmuş kateqoriyalara bölünməsini asanlaşdırmaq məqsədilə, imkan daxilində müxtəlif müəssisələrdən və ya bir müəssisə daxilində ayrı-ayrı binalardan istifadə etmək lazımdır.

**Azadlıqdan məhrum etmə yerlərində binalar**

Məhbuslar bir qayda olaraq onların digər məhbuslarla birlikdə yerləşdirilməsi daha düzgün hesab edilən hallar istisna olmaqla, adətən gecələr ayrı-ayrı kameralarda yerləşdirilirlər.

Məhbusların birlikdə yerləşdirilməsi zamanı onlar bu şəraitdə ünsiyyət üçün bir-birlərinə uyğun gəlməlidirlər. Gecə vaxtı onlar müəssisənin növünə uyğun müşahidə altında olurlar.

Məhbusların saxlandığı binalar (otaqlar), o cümlədən yataq yerləri sanitariya və gigiyena tələblərinə cavab verməli, iqlim şəraiti, xüsusi ilə havanın kubaturası, sahəsi, işıqlanma, qızdırılma, ventilyasiya qaydalarına uyğun olmalıdır.

Məhbusların yaşayışı və işləməsi üçün nəzərdə tutulmuş bütün binalarda:

a) məhbusun normal təbii işıqlanma şəraitində oxuması və ya işləməsi üçün pəncərələr kifayət qədər böyük olmalıdır. Bu pəncərələr elə qurulmalıdır ki, havanın tənzimlənməsi üçün kondisioner sistemi olan hallar istisna olmaqla, təmiz hava axını təmin olunsun. Bundan əlavə, təhlükəsizlik tələbləri gözlənilməklə, pəncərələr öz ölçülərinə, yerləşməsinə və quruluşuna görə maksimum normal pəncərələrə uyğun olmalıdır;

b) süni işıqlandırma ümumi qəbul olumuş texniki normalara uyğun gəlməlidir.

Sanitariya qurğuları və onlara yol elə qurulmalıdır ki, hər bir məhbus istənilən vaxt və təmizlik şəraitində təbii ehtiyaclarını ödəyə bilsin.

Vannalar və duşlar kifayət qədər olmalı, hər bir məhkum onlardan iqlimə münasib temperaturda, gigiyena qaydalarına, ilin fəsillərinə və coğrafı regiona uyğun, lakin həftədə bir dəfədən az olmayaraq, istifadə edə bilsin. Mümkün hallarda, istənilən münasib saatlarda məhkumların onlardan istifadə etməsi sərbəst olmalıdır.

Bütün binalar lazımi şəraitdə və təmizlikdə saxlanılmalıdır.

**Şəxsi gigiyena**

Məhbuslar şəxsi gigiyena tələblərinə riayət etməlidirlər, bu məqsədlə onların sərəncamlarına sağlamlıqlarını və təmizliyi saxlamaq üçün su və tualet ləvazimatları verilməlidir.

Məhbuslara gigiyena tələblərinə uyğun layiqli görkəmə malik olmaq və özlərinə hörmət etmək, saçlara və saqqala qulluq göstərmək üçün lazım olan hər şey nəzərə alınmalıdır. Kişilərə vaxtaşırı üz qırxmaq üçün imkan verilməlidir.

**Paltar və yataq ləvazimatı**

Öz şəxsi paltarını gəzdirmək hüququ olmayan məhbuslar iqlimə uyğun və sağlamlıqlarını qoruyan geyim əşyaları alırlar. Bu paltar heç bir halda rüsvayedici və alçaldıcı olmamalıdır.

Bütün geyim təmiz olmalı və lazımi vəziyyətdə saxlanılmalıdır. Alt paltar dəyişdirilir və gigiyena tələblərinə uyğun yuyulmağa göndərilir.

Həbs yerlərinin ərazisindən kənara çıxmağa yol verilən hallarda məhbuslara şəxsi paltarlarını və ya diqqəti cəlb etməyən digər paltar geyinməyə icazə verilir.

Qəbul olunarkən məhbusun şəxsi paltarının yaxşı vəziyyətdə saxlanması, istifadəyə yararlı qalması üçün lazımi tədbirlər görülür.

Hər bir məhbus ayrıca çarpayı və şəxsi yataq ləvazimatları ilə təmin olunur, onların yaxşı vəziyyətdə saxlanılması və təmizliyinin gözlənilməsi üçün tələb olunan qaydada dəyişdirilir.

**Məhbusların qidalanması**

Müdiriyyət məhbusları səhiyyə orqanlarının tələblərinə uyğun olunmuş vaxtlarda keyfıyyət baxımından müasir gigiyena tələblərinə və qida normalarına cavab verən, yaş, sağlamlıq vəziyyəti, əməyin xarakteri və mümkün qədər məhbusun dini və mədəni ənənələri nəzərə alınmaqla hazırlanmış yeməklə təmin edir.

Hər bir məhbusun içməli sudan istifadə etmək imkanı olmalıdır.

**Tibb xidməti**

Hər penitensiar müəssisəyə ən azı bir ümumi təcrübəyə malik həkim tərəfindən xidmət göstərilməlidir. Tibbi xidmət yerli və ya milli səhiyyə orqanları ilə sıx əlaqəli şəkildə təşkil edilir. Buraya ruhi nasazlıqların diaqnostikasım və əgər lazım gələrsə, müalicəsini əhatə edə bilən psixiatriya xidməti daxil olmalıdır.

İxtisaslaşdırılmış tibbi köməyə ehtiyacı olan məhbuslar xüsusiləşdirilmiş müəssisələrə və ya ümumi mülki xəstəxanalara keçirilirlər. Azadlıqdan məhrum etmə yerlərində stasionar olduqda, onlar xəstə məhbuslara tələb olunan qayğı və müalicəyə imkan verə bilən avadanhqlarla və dərman vasitələri ilə təmin edilməli, müvafıq işçi heyəti isə, kifayət qədər peşə hazırlığına malik olmalıdır.

Hər bir məhbusa ixtisaslı diş həkiminin xidmətindən istifadəyə imkan yaradılır.

Məhbuslar - onlara fıziki və ya mənəvi ziyan vura bilən heç bir təcrübəyə məruz qala bilməzlər.

Mümkün olan hallarda doğuşun azadlıqdan məhrum etmə yerlərindən kənarda yerləşən xəstəxanada keçməsi üçün tədbirlər görülür, əgər belə imkan olmazsa, penitensiar müəssisələrdə doğumun qəbulu və sonrakı qulluq üçün tələb olunan işçi heyəti, xüsusi otaq və avadanhqlar olmalıdır. Əgər uşaq həbsxanada anadan olarsa, doğum haqqında şəhadətnamədə bu barədə heç bir qeyd edilmir.

Əgər təzə doğulmuşlara anaları ilə birlikdə penitensiar müəssisədə saxlanmağa icazə verilirsə, südəmər uşaqların analarının qayğısından kənar vaxtlarda saxlanması üçün ixtisaslı işçi heyətə malik körpələr evinin təşkili üzrə xüsusi tədbirlər görülür.

Qəbuldan sonra maksimum qısa müddətdə, o cümlədən sonralar lazım olan hallarda hər bir məhbus, fiziki və ya psixi xəstəliklərin müəyyənləşdirilməsi və lazım olan vasitələr istifadə olunmaqla onların müalicəsi, infeksiya gəzdirə bilən məhbusların təcrid edilməsi, məhbusun azadlığa çıxdıqdan sonra normal həyata qayıtmasına mane ola biləcək fiziki və psixi pozulma hallarını, o cümlədən hər bir məhbusun əməyə yararlığını müəyyən etmək məqsədi ilə həkim müayinəsindən keçir.

Məhbusların fiziki və psixi sağlamlığı üzərində nəzarət həkimə həvalə olunur, o, xəstəxana normalarına uyğun şəkildə və vaxtaşırı bütün xəstə məhbuslara, o cümlədən xəstəliyi və zədəsi olması haqqında məlumat verən, həmçinin xüsusi diqqət tələb edən şəxslərə baxış keçirir.

Hər dəfə həkim məhbusun gələcəkdə həbsxanada qalmasının və yaxud saxlanma şəraitinin onun fiziki, psixi sağlamlığına zərər gətirdiyini, ziyan yetirə biləcəyini müəyyən etdikdə, direktora məlumat verir.

Həkim və ya hər hansı səlahiyyətli orqan vaxtaşırı yoxlama keçirir, aşağıda göstərilənlər haqqında direktora məsləhətlər verir:

a) yeməyin və suyun miqdarı, keyfiyyəti, hazırlanması və bölüşdürülməsi;

b) azadlıqdan məhrum etmə yerinin və məhbusların gigiyenası və təmizliyi;

c) kanalizasiya, su kəməri, istilik, işıqlandırma və ventilyasiya sistemlərinin vəziyyəti;

d) məhbusların geyiminin və yataq ləvazimatlarının yararlığı və təmizliyi.

Direktor yuxarıda qeyd edilmiş bəndlərlə əlaqədar ona həkim tərəfindən təqdim olunmuş məruzəyə və tövsiyələrə baxır və onlarla razı olduqda bu tövsiyələrin yerinə yetirilməsi üçün təcili lazımi tədbirlər görür, razılaşmadıqda və ya bu məsələ onun səlahiyyətinə aid olmadıqda, təxirəsalınmadan özünün məruzəsini və həkimin tövsiyələrini yuxarı instansiyaya göndərir.

Azadlıqdan məhrum etmə yerlərində tibbi xidmət işçiləri məhbusun azad olunduqdan sonra normal həyata qayıtmasına mane ola bilən fiziki və psixi xəstəliklərin və ya normaya uyğun olmayan hallarının müəyyən olunması və müəlicəsi üçün zəruri səylər göstərirlər. Bu məqsədlə məhbusa, azadlıqdan məhrum etmə yerlərindən kənarda da zəruri tibbi, cərrahi və psixiatrik kömək göstərilir.

**İntizam və cəza**

Azadlıqdan məhrum etmə yerlərində nizam və intizam, təhlükəsizlik daxili həyatın qaydaya salınması və islah təsirinin məqsədlərinə nail olmaq naminə saxlanılır.

İntizam tədbirlərinin tətbiqi ilə əlaqədar olan muzdla işləyən heyətin vəzifələrində heç bir məhbusdan istifadə oluna bilməz.

Lakin bu qayda, nəzarətə götürmək şərti ilə, müəyyən vəzifələrin həyata keçirilməsinin və sosial, təhsil və idman xarakterli fəaliyyətdə, saxlanma rejiminə uyğun proqramlarda iştirak üçün qruplara birləşmiş məhbuslara etibar olunmasına mane ola bilməz.

Aşağıda qeyd olunanlar müvafiq səlahiyyətli orqanlar tərəfindən qəbul edilmiş qanunla və ya normativ aktlarla təmin olunur və müəyyənləşdirilir:

a) intizam pozuntusu sayılan davranış;

b) mümkün intizam tənbehinin xarakteri və davam etmə müddəti;

c) intizam tənbehini müəyyənləşdirən səlahiyyətli orqan;

d) ərizə və şikayətin verilmə qaydası və həmçinin onların baxılması üçün müvəkkil edilmiş səlahiyyətli orqan.

Məhbus mövcud qanunun və normativ aktın müddəalarına görə yol verdiyi bir və ya təkrar pozuntuya görə iki dəfə cəzalandırıla bilməz .

İntizam pozuntuları haqqında məruzə təcili olaraq səlahiyyətli yuxarı orqanlara göndərilir və onlar olduqca qısa müddətdə müvafiq qərar qəbul edirlər.

Məhbusa bir şərtlə tənbeh tətbiq oluna bilər ki, ona əvvəlcədən təqsirləndirildiyi hüquq pozuntusu izah edilsin və özünü müdafiə etməkdən ötrü imkan verilsin.

İmkan və zərurət dairəsində məhbusa özünün müdafiəsini həyata keçirməkdən ötrü tərcüməçinin xidmətindən istifadə etmək imkanı verilir.

İntizam tədbiri aşağıdakı prinsiplər əsasında tətbiq olunmalıdır. Belə ki, intizam tədbiri kimi kollektiv və cismani tənbehlər vermək, qaranhq, bir adamlıq kameraya salmaq və həmçinin, hər hansı qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan cəza verilməsi qəti qadağan olunur.

Tənbeh kimi intizam təcridxanasına salınma və ya hər hansı digər cəza məhbusun fiziki, psixi sağlamlığına mənfi təsir göstərə bilərsə, bu cəza həkimin məhbusu tibbi müayinə etdikdən, sağlamlıq vəziyyətinə görə cəzanı çəkə bilməsi haqqında yazılı rəyi olduqdan sonra tətbiq edilə bilər.

Heç bir şəraitdə belə cəza yuxarıda göstərilən prinsiplərə zidd olmamalı və ya onlardan kənara çıxmamalıdır.

Həkim hər gün bu növ intizam cəzasına məruz qalan məhbuslara baş çəkir, onların fiziki və psixi sağlamlığının bu səbəbdən pisləşməsi qərarına

gəlirsə, onda cəzanın dayandırılması və ya dəyişdirilməsi barədə direktora məlumat verir.

**Təhlükəsizük tədbirləri**

Zəncir və qandaldan istifadə edilməsi qadağan olunur. Əl qandalları, cəza köynəkləri və hərəkəti məhdudlaşdıran başqa vasitələrdən heç bir halda cəza tədbiri kimi istifadə edilməməlidir. Onlardan yalnız aşağıda qeyd edilən hallarda istifadə oluna bilər:

a) müşaiyət zamanı məhbusun qaçması ehtimalının qarşısını almaq məqsədilə, bu şərtlə ki, məhbus məhkəməyə və ya inzibati orqana gətirildikdən sonra həmin vasitələr çıxarılsın (əgər qeyd olunan orqanlar başqa qərar qəbul etməmişlərsə);

b) həkimin göstərişi və nəzarəti altında tibbi xarakterli səbəblərə görə;

c) direktorun əmri ilə, əgər məhbusun özünə və başqalarına fiziki xəsarət və ya maddi ziyan yetirməyinin qarşısının başqa təsir vasitələti ilə alınması uğursuzluqla nəticələnərsə, bu halda direktor həkimlə təcili məsləhətləşməli və yuxarı inzibati instansiyalara məlumat verməlidir.

Əvvəlki maddədə icazə verilən təhlükəsizlik vasitələrinin tətbiqi xüsusiyyətləri, qaydaları qanunla və ya digər qüvvədə olan normativ aktla müəyyən olunur. Onların tətbiq müddəti heç vaxt zərurət hüdudlarından kənara çıxmamalıdır.

**Məlumatların və şikayətlərin verilmə qaydası**

Məhbus qəbul edilərkən ona müvafiq kateqoriyalı məhbuslarla davranış qaydaları, bu azadlıqdan məhrum etmə yerinin intizam tələbləri, müəyyən edilmiş tərzdə məlumat alınması və şikayətlərin verilməsi qaydası, həmçinin məhbusun öz hüquqlarını və digər məsələləri başa düşməsi, azadlıqdan məhrum etmə yerlərinə uyğunlaşması üzrə yazılı məlumat təqdim edilir.

Əgər məhbus məlumatı yazılı şəkildə başa düşmürsə, ona şifahi izahat verilir.

Hər bir məhbus istənilən gün müəssisənin direktoruna və ya onu əvəz edən şəxsə şikayət, ərizə vermək imkanma malik olmalıdır.

Məhbusun direktorun və müdiriyyət əməkdaşlarının iştirakı olmadan penitensiar idarənin müfəttişinə və ya müəssisəyə baş çəkmək hüququ olan digər rəsmi şəxsə ərizə və ya xahişlə müraciət etmək və onlarla təkbətək söhbət etmək imkanı olmalıdır. Lakin rəsmi qəbul olunmuş qərarlara yenidən baxılması üçün ərizələrin verilməsinə xüsusi prosedura qoyula bilər.

Hər bir məhbusa cəza-icra sisteminin mərkəzi orqanlarına, məhkəmə və ya digər səlahiyyətli orqanlara bağlı zərfdə ərizə, şikayət göndərməyə icazə verilir.

Penitensiar müəssisənin rəhbərliyinə göndərilən hər bir ərizə və şikayətə yubadılmadan baxılır və cavablar məhbusa vaxtında elan edilir.

**Xarici aləmlə əlaqə**

Məhbuslara öz ailələri və azadlıqdan məhrum etmə yerində saxlanma tələbləri, təhlükəsizliyin və nizam-intizamın gözlənilməsi şərti ilə müxtəlif təşkilatların nümayəndələri ilə əlaqə saxlamağa, imkan daxilində həmin şəxslərlə tez-tez görüşməyə icazə verilir.

Xarici aləmlə əlaqəyə kömək üçün bu qaydaların 4-cü hissəsində qeyd olunduğu kimi, islah təsirinin məqsədlərinə uyğun olaraq azadlıdan məhrum etmə yerlərindən məzuniyyətlər sistemi mövcud olmalıdır.

Əcnəbi məhbuslara mənsub olduqları ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinə müraciət hüququnun olması barədə yubadılmadan məlumat verilir, bundan ötrü onlara imkan daxilində lazım olan vasitələrdən istifadə etmək üçün şərait yaradılır. Azadlıqdan məhrum etmə yerinin müdiriyyəti həbsdə olan əcnəbilərin mənafelərini, xüsusi ehtiyaclarını nəzərə alaraq, yuxarıda qeyd olunan nümayəndəliklərlə sıx əlaqə saxlayır.

Əcnəbi məhbusların bu ölkədə diplomatik və ya konsulluq nümayəndəlikləri olmadıqda, həmçinin qağqmlara və vətəndaşlığı olmayan şəxslərə onların mənafelərini təmsil edən dövlətlərin nümayəndəliklərinə və ya həmin şəxslərin maraqlarını müdafiə etmək hüququ olan milli və ya beynəlxalq orqanın nümayəndələrinə müraciət etmək üçün eyni imkan yaradılır.

Məhbuslar qəzetlərdən, dövrü və digər nəşrlərdən, radio və televiziya verilişlərindən, mühazirələrdən və ya oxşar mənbələrdən müdiriyyətin razılığı və nəzarəti altında yeniliklər barədə müntəzəm olaraq məlumat ala bilərlər. Dil ilə əlaqədar çətinlik çəkən xarici vətəndaşların tələbatını ödəmək üçün xüsusi tədbirlər həyata keçirilməlidir.

**Dini və mənəvi təminat**

Hər bir məhbusa imkan daxilində özünün dini, mənəvi, əxlaqi tələblərini təmin etməyə və bundan ötrü azadlıqdan məhrum etmə yerlərində dini ayinlərin icrasında iştirak etməyə, zəruri kitab və nəşrlər saxlamağa icazə verilir.

Əgər azadlıqdan məhrum etmə yerlərində bu və ya digər dinə mənsub olan kifayət qədər məhbus varsa, onda rəsmi olaraq həmin dinin nümayəndəsi təyin və ya təsdiq edilməlidir. Əgər belə məhbuslar çoxluq təşkil edirsə və şərait buna imkan verirsə, bu şəxslə daimi əsaslarla işləmək üçün müqavilə bağlanır.

Birinci bəndə əsasən təyin və təsdiq edilmiş rəsmi nümayəndəyə din fəaliyyət göstərməyə, mərasimlərin icrası üçün münasib vaxtda həmin dini etiqad göstərənlərə hamı kimi görüşməyə icazə verilməlidir.

Məhbuslara heç bir vaxt bu və ya digər dinin rəsmi nümayəndəsi ilə görüşmək qadağan oluna bilməz. Əgər məhbus dini nümayəndənin gəlişinə etiraz edirsə, bu nəzərə alınmalı və görüşdən imtina etməyə icazə verilməlidir.

**Məhbusların əşyalarının saxlanılması**

Daxili qaydalara uyğun olaraq məhbuslara özlərində saxlamağa icazə verilməyən bütün pullar, qiymətli və digər predmet, əşyalar o, azadlıqdan məhrum etmə yerinə gətirilən kimi saxlanmaqdan ötrü təhvil verilir. Bu əşyaların siyahısı tərtib olunur, məhbus tərəfindən imzalanır. Onları yaxşı vəziyyətdə qoruyub saxlamaqdan ötrü tədbirlər görülür. Əşyalardan hər hansı birinin məhv edilməsi zərurəti yaranırsa, bu halda lazımi qaydada protokol tərtib olunur və məhbusa bu barədə məlumat verilir.

Müəyyən məqsədlər üçün tutulmalar həyata keçirildikdən sonra müəssisədən kənara göndərilən və ya gigiyena baxımından məhv edilmiş predmetlərdən başqa pul və digər əşyalar azadlığa çıxarkən məhbusa qaytarılır. Məhbus ona qaytarılan əşyalar, pulu alması barədə sənədi imzalayır.

Məhbusa verilən və ya kənardan göndərilən hər bir əşya, pulun cəzaçəkmə dövründə istifadəsi nəzərdə tutulmayıbsa, imkan daxilində bu qaydaların təsiri altına düşür.

Əgər məhbus daxil olarkən onda hər hansı bir dərman olarsa, ondan istifadə olunma məsələsini həkim həll edir.

Ölüm, xəstəlik və digər müəssisəyə keçirilmə və digər hallar haqqında xəbər verilməsi

Ölüm və ağır xəstəlik hallarında, ciddi nəticələrlə müşaiyət edilən bədbəxt hadisələr zamanı və ya məhbusu ruhi xəstəliklər üçün müəssisəyə keçirdikdə, əgər məhbus evlidirsə, onun arvadına və ya ərinə, yaxın qohumuna və ya məhbusun əvvəllər göstərdiyi hər hansı bir şəxsə direktor təcili məlumat verir.

Məhbusa yaxın qohumunun ölümü və ya ağır xəstəliyi ilə əlaqədar təcili surətdə məlumat verilir. Bu halda vəziyyət imkan verirsə, məhbusa sərbəst və ya müşaiyətlə xəstə qohumuna baş çəkməyə və ya vəfat edən şəxslə vidalaşmağa icazə verilir.

Hər bir məhbusun özünün həbs olunması və ya başqa müəssisəyə keçirilməsi haqqında ailəsinə təcili məlumat vermək hüququ vardır.

**Məhbusların yerlərinin dəyişdirilməsi**

Məhbuslar bir azadlıqdan məhrum etmə yerlərindən digərinə köçürülən zaman, imkan daxilində kənar şəxslərin diqqətindən uzaqlaşdırılmalı, onların hər hansı bir təhqirdən, maraqdan və aşkarlıqdan qorunmasından ötrü lazımi tədbirlər görülməlidir.

Məhbusları fiziki cəhətdən artıq əziyyətə sala bilən və alçaldıcı şəraiti olan, havası pis dəyişilən, yaxşı işıqlandırılmayan nəqliyyat vasitələri ilə daşımaq qadağandır.

Məhbusların daşınması müdiriyyətin hesabına qüvvədə olan qaydalara əsasən həyata keçirilir.

**Penitensiar müəssisələrin işçi heyəti**

Cəza-icra sisteminə daxil olan müəssisələrin lazımi tərzdə idarə olunmasında, təşkilati və tərbiyə planında qarşıya qoyulmuş məqsədlərə nail olmaqda işçi heyətinin xüsusi rolunu nəzərə alaraq, penitensiar müdiriyyət bu heyət haqqında qaydalara ciddi riayət edilməsinə birinci dərəcəli vəzifə kimi baxmalıdır.

Təhsildən, məsləhət praseduralarından və səmərəli idarəetmə üsullarından istifadə etməklə penitensir müəssisələrin əməkdaşları daima humanist olmağa, ixtisaslarını artırmağa və vəzifələrini vicdanla icra etməyə həvəsləndirilirlər.

Cəza-icra sisteminin rolu, işçi heyətinin əməyinin cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb etməsinin düzgün dərk edilməsi ilə əlaqədar ictimaiyyətə daima məlumat verilməsini penitensiar müdiriyyət ən mühüm, vacib vəzifələrindən biri hesab etməlidir.

Penitensiar rəhbərlik bütün səviyyələrdə işçi heyətini işə götürərkən və sonradan onları vəzifəyə təyin edərkən olduqca ciddi surətdə seçmə üsulundan istifadə edir. Belə iş üçün ən zəruri olan mənəvi təmizlik, insanpərvərlik, peşə və şəxsi keyfiyyətlər nəzərə alınır.

İşçi heyəti bir qayda olaraq, öz vəzifələrini vicdanla yerinə yetirən, fiziki cəhətdən yararlı, mənəvi cəhətdən sağlam, müvafiq təhsil səviyyəli,

məşğulluğuna təminat verilən, ştatda duran mülki qulluqçu peşəkarlardan ibarətdir. Əmək haqqı kifayət qədər yüksək olmalıdır ki, buraya müvafıq ixtisaslı kişi və qadınlar cəlb etmək, xidmətdə saxlamaq mümkün olsun; onlar əməyin xarakteri və irəli sürülən tələblər nəzərə alınmaqla, müxtəlif güzəştlərə və əlverişli xidmət şəraiti ilə təmin olunurlar.

İşçi heyətinin daimi işləmək zərurəti olmadıqda və ya müvəqqəti işləmək lazım gəldikdə onlara da həmin meyarlar tətbiq olunur.

Muzdla işə cəlb edilən andan və yaxud müəyyən təcrübə vaxtı başa çatdıqdan sonra işçi heyəti ümumi və xüsusi hazırlıq kursu keçir və əməkdaşların peşə ixtisası bunu tələb etmədiyi hallardan başqa, nəzəriyyədən və təcrübədən müvafıq imtahanlar verir.

Bütün xidmət dövrü ərzində işçi heyəti öz biliyini, peşə hazırlığını saxlamalı, təkmilləşdirməli, bundan ötrü müdiriyyətin vaxtaşırı təşkil etdiyi ixtisasartırma kurslarını keçməlidir.

İşçi heyətinin böyük təcrübə əldə etməsi və daha geniş hazırlığa malik olması üçün lazımi tədbirlər görülməlidir.

Bütün əməkdaşlar tədris dövründə Avropa Penitensiar Qaydaları və İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası və onların təcrübədə tətbiqi ilə tamş olmalıdırlar.

Bütün əməkdaşlar hər bir şəraitdə özlərini elə aparmalı və vəzifə borclarını elə yerinə yetirməlidirlər ki, məhkumlara nümunə olub, onların hörmətini qazansınlar və faydalı təsir göstərsinlər.

İmkan daxilində işçi heyətinin tərkibinə kifayət qədər psixiatrlar, psixoloqlar, sosial işçilər, müəllimlər və texniki peşə təhsili, bədən tərbiyəsi və idman üzrə təlimatçılar daxil edilməlidirlər.

Bu və digər mütəxəssislər bir qayda olaraq ştatda olmalıdırlar. Lakin ehtiyac olduqda və əgər bu göstərilən yardıma və onların təhsilinin səviyyəsinə müsbət təsir göstərirsə, onda daimi əsaslarla işləməyənlərdən və ya təmannasız olaraq könüllü kimi çalışmaq istəyənlərdən istifadə etmək olar.

Penitensiar müdiriyyət cəza-icra sisteminin hər bir müəssisəsinin direktorunun, direktor müavininin və ya digər səlahiyyətli vəzifəli şəxsin daimi nəzarəti altında olmasını təmin edir.

Müəssisənin direktoru öz şəxsi keyfıyyətləri, inzibati iş qabiliyyəti, peşə hazırlıq səviyyəsi və təcrübə baxımından tutduğu vəzifəyə uyğun olmalıdır.

Direktor vəzifəsi ştata daxil edilir, işdə və ya yaxın yerdə olmalıdır ki, penitensiar müdiriyyətin təlimatlarında nəzərdə tutulduğu kimi, istənilən vaxt onunla əlaqə yaratmaq mümkün olsun.

Əgər cəza-icra sisteminin iki və daha çox müəssisəsi bir direktora tabedirsə, o, mümkün qədər tez-tez növbə ilə həmin müəssisələrdə olmalıdır. Bu müəssisələrin hər birində ona rəhbərlik edən məsul vəzifəli şəxs olmalıdır.

Müdiriyyət elə təşkilat forması və idarəetmə sistemi tətbiq edir ki, cəzaçəkmə yerlərinin müxtəlif xidmət sahələrinin işçi heyətinin fəaliyyətini tənzimləmək üçün onların arasında əlaqə yaransın, bu əlaqə, məhbuslara islah təsiri göstərməkdə, sonradan onların həyata uyğunlaşmalarına kömək etsin.

Direktor, onun müavini və digər işçilər məhbusların əksəriyyətinin başa düşə bildikləri dildə danışmağı bacarmalıdırlar.

Zəruri və mümkün olan bütün hallarda tərcüməçi xidmətinə müraciət olunmalıdır.

İxtisaslı və icazəyə malik olan həkimin təcili tibbi yardım göstərə bilməsi üçün tədbirlər görülməlidir.

Həkim ştatı olmayan azadlıqdan məhrum etmə yerinə əvəzçilik ilə işləyən həkim və ya müvafiq icazəsi olan səhiyyə xidmədinin işçi heyəti müntəzəm olaraq baş çəkməlidir.

Məhbus qadınlar və kişilər saxlanılan azadlıqdan məhrum etmə yerlərində və ya bölmələrində hər iki cinsdən olan əməkdaşların işə təyin olunması, birgə çalışması həvəsləndirilir.

Qanuna və daxili nizam qaydalarına əsaslanan özünümüdafiə, qaçışın qarşısını alma və ya məhbusun əmrə aktiv və ya passiv tabe olmaması halları istisna olmaqla, işçi heyəti məhbuslara qarşı güc tətbiq etməkdən çəkinməlidir. Güc tətbiq edən işçilər son zərurət çərçivəsindən kənara çıxmamalı və hadisə barədə müəssisənin direktoruna təcili məlumat verməlidirlər.

Penitensiar müəssisələrin əməkdaşları zərurət olduqda, təcavüzkar məhbusları sakitləşdirməkdən ötrü xüsusi texniki hazırlıq keçirlər.

Xüsusi hallar istisna olmaqla, öz fəaliyyəti ilə əlaqədar məhbuslarla birbaşa təmasda olan vəzifəli şəxslər silahlı olmamalıdırlar. Bundan əlavə, ondan istifadə etməyi öyrənmədən əməkdaşlara heç bir halda silah verilməməlidir.

### 3.4. Azadlıqdan məhrum etmə yerlərində saxlanmanın məqsədləri və rejimlər

İnsanı azadlıqdan məhrum etməklə həbsxanaya salınma artıq özü-özlüyündə cəzadır. Buna görə də təcrid etmə və intizamı qoruyub saxlamaq halları istisna olmaqla, azadlıqdan məhrum etmə yerlərində saxlanma şəraiti, rejimi məhbusların iztirablarını artırmamalıdır.

Bütün səylər göstərilməlidir ki, azadlıqdan məhrum etmə yerlərində tətbiq edilən rejimlər elə təyin edilsin, həyata keçirilsin ki:

a) cəmiyyətdə qəbul edilmiş normalara və insan ləyaqətinə uyğun şərait təmin olunsun;

b) məhbus özünə hörməti və şəxsi məsuliyyətini itirməsin deyə, məhbusluğun mənfi nəticələri və məhbusun azadlıqdakı həyatla fərqi minimum həddə çatdırılsın;

c) məhbusların və onların ailələrinin mənafeyi naminə qohumlarla və ictimaiyyətlə əlaqə saxlanılsın, bu əlaqələr möhkəmləndirilsin;

ç) azadlıqdakı həyata uğurla daxil olmağa kömək edən vərdiş və meylləri inkişaf etdirməkdən ötrü məhbuslara imkan yaradılsın.

Bu məqsədlə məhbuslara fərdi islah təsiri göstərməkdən ötrü tərbiyə-islah, təhsil, mənəvi, dini və digər vasitələr, onlardan istifadə etmək imkanı ohnahdır. Buna görə də tətbiq edilən rejimlərə aşağıdakılar daxil edilməlidir:

a) dini dayaq və kömək, həmçinin texniki peşə, ümumtəhsil və peşəyönümü hazırlığı, idmanla məşğul olmaq və sosial verdişləri inkişaf etdirmək və uyğun gələn iş üçün imkan yaradılması; məsləhətlər verilməsi, qrup halında tədbirlər təşkil edilməsi və asudə vaxtın verilməsi;

b) məhbusların xarici aləmlə əlaqələrini imkan daxilində genişləndirməyə və onların azadlığa çıxdıqdan sonra sosial uyğunlaşmasını yüngülləşdirməyə imkan yaradan fəaliyyəti təmin edən tədbirlərin təşkili;

c) müvafiq işçi heyətlə və o cümlədən, barələrində söhbət gedən məhbuşlarla ətraflı məsləhətləşmələrdən sonra fərdi islahetmə təhsil proqramlarının hazırlanması və onların dəyişdirilməsi prosedurları;

ç) islah rejimlərinin və proqramlarının effektiv və müvəffəqiyyətlə həyata keçirilməsi naminə işçi heyəti və məhbuslar arasında müsbət münasibətlərin yaranmasına kömək edən əlavə sistemləri və rəhbərlik üsulları.

Bu məqsədlərə çatmaqdan ötrü məhbuslara göstərilən islah təsirini fərdiləşdirmək lazımdır. Bunun üçün məhbusları müxtəlif cəzaçəkmə

müəssisələrinə və yaxud onların bölmələrinə çevik surətdə bölüşdürmək sistemi yaratmaq lazımdır ki, hər bir məhbus üçün müvafiq islah təsiri və təhsil nəzərdə tutulsun.

Bu müəssisələrin və onların bölmələrinin tipi, ölçüləri, təşkili, imkanları başlıca olaraq tətbiq edilən islah təsirinin, təhsilin xarakteri ilə təyin olunur.

Məhbusları yerləşdirərkən təhlükəsizlik və nəzarət tələblərini nəzərə almaq lazımdır. Lakin görülən tədbirlər zəruri təhlükəsizliyi təmin edən və məhbusların fərdi tələbatını nəzərə alan minimum həddi aşmamalıdır. Məhbusların açıq tipli müəssisələrə göndərilməsinə və ya onlara xarici aləmlə geniş əlaqə yaratmağa imkan verilməsinə nail olmaq lazımdır. Xarici vətəndaşların azadlıqdan məhrum etmə yerlərindən kənarda olan öz həmvətənləri ilə əlaqə saxlaması xüsusi ilə vacibdir.

Müəyyən müddətdə azadlıqdan məhrum olunmuş hər bir məhbus qəbul edildikdən və onun şəxsiyyəti öyrənildikdən sonra mümkün qədər qısa vaxtda, əsasən onun fərdi tələbatı, bacarığı, mənəvi vəziyyəti, qohumlarına yaxınlığı xüsusiyyətlərini nəzərə alan saxlanma proqramı hazırlanır.

Tətbiq olunan rejimlər çərçivəsində məsuliyyət hissinin, təşəbbüskarlığın inkişafı və özlərinin islah olunmasına maraq yaratmaq məqsədilə məhbuslara müəssisənin fəaliyyətində iştirak etmək imkanı yaradılır.

Məhbuslarla əməkdaşlıq etməyin və onların özlərinin islah olunmalarında iştirakı üsullarını təkmilləşdirməyi həvəsləndirmək vacibdir. Bu məqsədlə bu qaydaların 34-cü maddəsi çərçivəsində, məhbuslarda saxlandıqları müəssisənin müəyyən sahələrində məsuliyyəti öz üzərlərinə götürmək həvəsi yaratmaq lazımdır.

Məhbusların azadlığa buraxılması ilə əlaqədar hazırliq işlərinə onların azadlıqdan məhrum etmə yerinə gəldiklərindən sonra mümkün qədər tez başlamaq lazımdır. Bu o deməkdir ki, məhbuslarla davranış və onların saxlanılması elə olmalıdır ki, onlar özlərini cəmiyyətdən təcrid olunmuş hesab etməsinlər, əksinə, onun bir hissəsi olduğunu hiss etsinlər. Buna görə də, ictimai təşkilatları və sosial əməkdaşları azadlıqdan məhrum etmə yerlərində məhbusların sosial reabilitasiyası işində işçi heyətinə köməklik göstərməyə, xüsusi ilə məhbusun öz ailəsi və digər şəxslərlə, ictimai təşk-ilatlarla əlaqə saxlamasına, bu münasibətləri yaxşılaşdırmağa yardım etməyə cəlb etmək lazımdır. Qanunla təyin olunmuş cəza çərçivəsində məhbusların vətəndaşlıq, sosial təminat və digər sosial hüquqlarının müdafiəsi üçün zəruri tədbirlər görülməlidir.

İslah təsiri proqramları həmçinin azadlıqdan məhrum etmə yerlərindən tibbi, təhsil, peşə, ailə və digər sosial xarakterli məsələlərlə əlaqədar məzuniyyət verilməsi şərtlərini də nəzərdə tutmalıdır.

Əcnəbilər, ancaq onların vətəndaşlıqları səbəbindən azadlıqdan məhrum etmə yerlərindən qısa müddətə kənara çıxmaq imkanından məhrum edilməməlidirlər. Bununla yanaşı, təcrid olunma hisslərini azaltmaq üçün rejimin nəzərdə tutduğu fəaliyyətdə onların hamı ilə birlikdə iştirakı üçün hər şey edilməlidir.

Azadlıqdan məhrum etmə yerlərində əməyə islah təsirinin, peşə hazırlığının və inzibati idarəetmənin müsbət elementi kimi baxılır.

Həkimlərin rəyi ilə, əgər məhbusların fiziki və psixi sağlamlıqları imkan verirsə, onları əməyə cəlb etmək olar.

Normal iş günü ərzində məhbuslara kifayət həcmdə ictimai faydalı iş və ya əgər məqsədəuyğundursa, digər fəaliyyət növü ilə məşğul olmaqları üçün imkan yaradılır.

Məhbuslara təqdim olunan iş onlara azadlığa çıxdıqdan sonra normal qazanc əldə etmək qabiliyyətini saxlamağa və yaxşılaşdırmağa imkan yaratmalıdır.

Məhbuslara, xüsusi ilə gələcəkdə lazım ola bilən faydalı peşələrə yiyələnməkdən ötrü peşə təhsili almaq imkanı verilir.

Müdiriyyətin və intizamın tələbləri, şüurlu peşə seçimi çərçivəsində məhbuslara öz arzularına uyğun məşğuliyyət növü seçmək imkanı verilir.

Azadlıqdan məhrum etmə yerlərində əməyin təşkili və üsulları imkan daxilində elə ohnahdır ki, azadlıqda tətbiq olunan iş şərtlərinə uyğun olsun və məhbuslara azadlıqdakı əmək şəraitinə hazırlamaq mümkün olsun. Belə əmək qüvvədə olan normalara və texniki tələblərə uyğun olmalı və müasir idarəetmə və istehsalat prosesləri çərçivəsində həyata keçirilməlidir.

Məhbusların əməyindən maliyyə gəliri almaq cəhdi keyfiyyətin yüksəlməsinə və yaxşılaşmasına, həmçinin peşə hazırlığının səviyyəsinə müsbət təsir göstərsə də, məhbusların mənafeləri və onlara göstərilən islah təsiri bu məqsədə tabe edilməməlidir.

**Penitensiar müdiriyyət məhbusları işlə təmin edir:**

a) cəzaçəkmə yerlərindəki emalatxanalarda və ya kənd təsərrüfatı müəssisələrində;

b) şəxsi icarədarların köməyi ilə azadlıqdan məhrum etmə yerlərinin ərazisində və ya oradan kənarda; bu hallarda iş təqdim edən şəxslər onlar üçün işləyən məhbuslara adi əmək haqqı verir, bu zaman onların istehsal normaları nəzərə alınır.

Məhbusların əməyinin və sağlamlığının qorunması tədbirləri azadlıqda olan insanlar üçün tətbiq olunanlara uyğun olmalıdır.

Peşə xəstəlikləri də daxil olmaqla, istehsalatda xəsarət alma hallarında məhbusların dəymiş ziyanın əvəzini almaq hüquqları azadlıqda insanlar üçün nəzərdə tutulanlarla eyni olaraq qanunda öz əksini tapmalıdır.

Məhbusların iş gününün və iş həftəsinin maksimal müddəti azadlıqda insanlara şamil edilən yerli qayda və normalara uyğun olaraq təyin edilir.

Məhbuslara həftədə ən azı bir azad gün və kifayət qədər asudə vaxt verilir ki, onlar islah təsiri proqramlarında nəzərdə tutulduğu kimi təhsillə və digər işlərlə məşğul ola bilsinlər və gələcəkdə azad həyata daxil olmağa hazırlaşsınlar.

Məhbusların əməyinin ədalətli ödənilməsi sistemi mövcud olmalıdır.

Bu sistemə uyğun olaraq məhbuslara qazanclarının ən azı bir hissəsindən şəxsi istifadə üçün icazə verilən əşyalar almağa və əmək haqqının müəyyən hissəsini ailəsinin ehtiyacları və izin verilən başqa məqsədlər üçün xərcləməyə icazə verilir.

Bu sistem müdiriyyət tərəfindən məhbusun qazancının onun şəxsi hesabına keçirilməsini və azad olunarkən ona təqdim olunmasını nəzərdə tutur.

**Təhsil**

Hər bir azadlıqdan məhrum etmə yerində məhbusların özlərinin az da olsa, maraq və tələbatlarının bir hissəsini ödəməyə imkan verən ətraflı təlim proqramı hazırlanır və həyata keçirilir. Belə proqramların məqsədi - uğurlu sosial reabilitasiya imkanlarını yaxşılaşdırmaq, onlarda ruh yüksəkliyini saxlamaq, ətrafdakılara münasibəti yaxşılaşdırmaq və özlərinə hörmət hissini yüksəltmək olmalıdır.

Təhsilə penitensiar rejim çərçivəsində əmək statuslu və əsasən haqqı ödənilən fəaliyyət kimi baxılmalıdır, bu şərtlə ki, o adi iş günü ərzində yerinə yetirilir, təsdiqlənmiş fərdi islah etmə proqramına daxildir.

Penitensiar müdiriyyət gənc məhbusların, spesifik-mədəni və ya etnik tələbatı olan xarici mənşəli məhbusların təhsilinə, tərbiyəsinə xüsusi diqqət yetirməlidir.

Xüsusi problemlərlə rastlaşan, misal üçün, oxumağı və saymağı bacarmayan məhbusların təhsilindəki qüsurları aradan qaldırmaq üçün fərqli proqramlar tərtib etmək vacibdir.

İmkan daxilində məhbusların təhsili:

a) onların azadlığa çıxdıqdan sonra öz təhsillərini asanlıqla davam etdirmələrindən ötrü dövlət təhsil sistemi ilə inteqrasiyada olmalıdır.

b) azadlıqdan məhrum etmə yerlərindən kənarda olan təhsil müəssisələrində həyata keçirilməlidir.

Hər bir azadlıqdan məhrum etmə yerində bütün məhbus qrupları üçün nəzərdə tutulan, bədii ədəbiyyat və dərsliklərlə tam komplektləşdirilmiş kitabxana olmalıdır, məhbuslar onlardan istifadə etməyə həvəsləndirilməlidir. Mümkün olan yerlərdə həbsxana kitabxanaları kütləvi kitabxanaların iştirakı ilə yaradılır.

**Bədən tərbiyəsi, idman və asudə vaxt**

Penitensiar rejimlər lazımi şəkildə təşkil olunmuş, yaxşı fiziki formanı saxlamağa, idmanla məşğul olmağa və asudə vaxtın təşkilinə yönəlmiş fəaliyyəti fiziki və psixi sağlamlıq üçün vacib sayırlar.

Müvafiq olaraq islah təsiri və təhsil sistemlərinin məqsədlərinə uyğun çərçivədə fiziki tərbiyə, idmanla məşğul olma və istirahət proqramı işlənib hazırlanmalı və həyata keçirilməlidir. Bunun üçün idman meydançaları, qurğuları və avadanlıqları təqdim edilir.

Penitensiar müdiriyyət diqqət yetirməlidir ki, bu proqramlarda iştirak edən məhkumlar fiziki cəhətdən buna yararlı olsunlar. Fiziki tərbiyə və müalicə məqsədilə idmanla məşğul olmağa ehtiyacı olan məhbuslar üçün həkimin rəhbərliyi altında xüsusi tədbirlər təşkil edilir.

Azadlıqdan məhrum etmə yerlərindən kənarda işləməyən və ya açıq tipli azadlıqdan məhrum etmə yerlərində məhkumlara, əgər hava şəraiti imkan verirsə, hər gün bir saatdan az olmayaraq təmiz havada və ya mümkündürsə, pis hava şəraitində qapalı yerdə, gəzinti və ya fiziki işləri yerinə yetirməyə icazə verilir.

**Azad edilməyə hazırlıq**

Bütün məhbuslar azadlığa çıxdıqdan sonra onların cəmiyyətə qayıtmalarına, ailələrini bərpa etməyə, iş tapmağa kömək edən vasitələrdən istifadə etmək imkanına malik olmalıdır. Bu məqsədlə müxtəlif prosedurlar işlənib hazırlanır və xüsusi kurslar təşkil edilir.

Uzun müddətə azadlıqdan məhrum edilən məhbuslara gəldikdə, onları cəmiyyətdəki həyata qayıtmağa tədricən hazırlamaq təmin olunmalıdır. Bu məqsədə nail olmağa həmin və digər azadlıqdan məhrum etmə yerlərində tətbiq edilən azadlığa buraxılışa hazırlıq proqramı və ya cəmiyyətin səmərəli köməyinə arxalanan, bu və ya digər formada nəzarət altında şərti azad olunma kömək edə bilər.

Penitensiar müdiriyyət fəaliyətini məhbuslara cəmiyyətdə öz yerini bərpa etməyə, xüsusilə ailə həyatına qayıtmağa, işlə təmin olunmağa kömək edən sosial xidmətlər, ictimai təşkilatlarla sıx əlaqədə həyata keçirməlidir.

Zərurət olduqda, azad edilən məhbusları müvafıq sənəd və şəxsiyyəti təsdiq edən vəsiqə ilə təmin etmək, onlara yaşayış və iş yeri tapmaqda kömək məqsədilə tədbirlər görülür. Onlar həmçinin azad olunduqda, bilavasitə ilin fəslinə və hava şəraitinə uyğun paltarla, gedəcəkləri yerə çatmaqdan ötrü kifayət qədər məbləğdə pul ilə təmin olunurlar.

Sosial xidmətlərin və ictimai təşkilatların səlahiyyətli nümayəndələri məhbusları azadlığa buraxılmağa hazırlamaq və onların gələcək reabilitasiyası üçün azadlıqdan məhrum etmə yerlərinə getmək, məhbuslarla görüşmək imkanma malik olmalıdırlar.

### 3.5. Xüsusi kateqoriyalı məhbuslar üçün əlavə qaydalar

Penitensiar müdiriyyət aşağıda göstərilən əlavə qaydalar məcmusundan bütün hallarda xüsusi kateqoriyadan olan məhbusların mənafeyi naminə səmərəli istifadə etməlidir.

**Məhkəmə və ya istintaq altında olan məhbuslar**

Şəxsi azadlıqların müdafiəsinə aid olan qanunvericiliyin müddəalarına zərər vurmadan və prosessual qaydalara uyğun olaraq, istintaq altında olanlara və ya təqsirləndirilən şəxslərə müqəssir olduqları sübut olunana kimi təqsirsizlik prezumpsiyası tətbiq edilir. Bu məhbuslar cinayət-prosessual hüquqda və azadlıqdan məhrum etmə yerinin təhlükəsizlik tələblərində nəzərdə tutulanlardan başqa, 90-cı maddəyə görə, onlara verilən imtiyazlardan istifadə edir və digər məhdudiyyətlərə məruz qalmamalıdır.

İstindaq altında olanlar və ya təqsirləndirilən şəxslər həbsə alınmaları haqqında ailələrinə dərhal xəbər vermək hüququna malikdirlər. Onlara ailələri, dostları və əlaqələri, onlar üçün qanuni maraq doğuran şəxslərlə ünsiyyətdə olmaq üzrə bütün səmərəli imkanlar verilir.

Onlara həmçinin ədalət mühakiməsinin, təhlükəsizliyin və azadlıqdan məhrum etme yerlərinin qaydalarının gözlənilməsi naminə bir sıra məhdudiyyətlər istisna olmaqla, bu şəxslərlə ləyaqətli şəraitdə və nəzarət altında görüşə icazə verilməlidir.

Əgər istintaq altında olan və ya təqsirləndirilən şəxs özünün həbsə alınması haqqında yuxarıda göstərilən şəxslərə məlumat vermək

istəməzsə, penitensiar müdiriyyət bunu zəruri ehtiyac olmadan, misal üçün, bu şəxsin qocalığı, psixi vəziyyəti və ya digər acizliyi halları istisna olmaqla, öz təşəbbüsü ilə etməməlidir.

Hər bir istintaq altında olan və ya təqsirləndirilən şəxs həbsə alınan andan özünün seçdiyi vəkilin xidmətindən istifadə etmək və yaxud əgər beləsi varsa, ona pulsuz vəkil təyin olunması üçün müraciət etmək imkanlarına malik olmalı, onunla müdafiənin təmin olunması üzrə görüşmək, vəkilə gizli təlimatlar hazırlayıb vermək, ondan məsləhət almaq şəraiti olmalıdır. Onların xahişi ilə bunun üçün hər bir şey təqdim edilir. Məsələn, onlar müdiriyyət ilə bütün vacib əlaqələri həyata keçirə və özlərinin müdafiəsi üçün tərcüməçinin xidmətindən pulsuz istifadə edə bilərlər. İstintaq altında olanın və ya təqsirləndirilən şəxslərin vəkil ilə görüşü polis nümayəndəsinin nəzarəti altında keçə bilər, lakin söhbətə qulaq asıla bilməz. İstintaq altında olanların və ya təqsirləndirilən şəxslərin yerləşdirilməsi yuxarıda sadaladığımız qaydalara əsasən (bax: 3.1.) həyata keçirilir.

İstintaq altında olanlara və ya təqsirləndirilən şəxslərə arzuedilməz hallar istisna olmaqla, ayrı kameradan istifadə etmək imkanı verilir.

İstintaq altında olanlara və ya təqsirləndirilən şəxslərə öz paltarlarını, əgər bunlar təmiz, yararlıdırsa geyinməyə icazə verilir.

Əgər məhbuslar bu imkandan imtina edərlərsə, onlara digər münasib paltar verilir.

Münasib paltar olmadıqda, məhkəmənin qarşısında durmaq və yaxud azadlıqdan məhrum etmə yerlərindən icazə verilən hallarda çıxmaq üçün istintaq altında olanlara və ya təqsirləndirilən şəxslərə yaxşı vəziyyətdə olan mülki kostyum verilir.

İstintaq altında olanlara və ya təqsirləndirilən şəxslərə imkan daxilində işləmək təklif olunur, lakin onları buna məcbur etmək olmaz.

İstintaq altında olanlara və ya təqsirləndirilən şəxslərə ədalət mühakiməsinin, təhlükəsizliyin, azadlıqdan məhrum etmə yerlərində saxlanma qaydaları gözlənilməklə, öz hesablarına və ya üçüncü şəxslərin hesablarına kitab, qəzet, yazı ləvazimatları, məşğuliyyət üçün digər əşyalar almağa icazə verilir.

Lazımi əsaslar olduqda, istintaq altında olanların və ya təqsirləndirilən şəxslərin xahişi ilə onlara özlərinin müalicə, diş həkimindən tibbi yardım almaq imkanı verilir. İmtina etmə əsaslandırılmalıdır. Bu xərclərin ödənilməsi penitensiar müdiriyyətə həvalə olunmur.

**Mülki hüquq pozuntularına görə məhkum olunanlar**

Qanunvericilikdə cinayət prosesi ilə əlaqədar olmayan hallarda məhkəmənin qərarı ilə azadlıqdan məhrum etmə nəzərdə tutulan ölkələrdə müvafiq məhbuslar təhlükəsizliyin təmin olunması və qaydaların tələb etdiyi hallar istisna olmaqla, heç bir digər məhdudiyyətlərə, ciddiliklərə məruz qalmırlar. İşləmək vəzifəsi istisna olmaqla, onlarla davranış istintaq altında olan şəxslərdən və təqsirləndirilən şəxslərdən ciddi olmamalıdır.

**Ruhi xəstələr və psixi cəhəddən qüsürlu məhbuslar**

Ruhi xəstələr penitensiar müəssisələrdə saxlanılmamalıdır. Onların tez bir müddətdə ruhi xəstələr üçün nəzərdə tutulmuş müəssisələrə keçirilməsi üçün tədbirlər görülür.

Digər psixi xəstəliklərdən və pozulmalardan əziyyət çəkən məhbusların müalicəsi və onlara nəzarət üçün həkim müşahidəsi altında xüsusi müəssisələr və bölmələr yaradılmalıdır.

Azadlıqdan məhrum etmə yerlərinin tibbi və ya psixiatriya xidmətləri psixiatrik müalicəyə ehtiyacı olan bütün məhbusları təmin edir.

Əgər azad edildikdən sonra psixiatrik müalicənin davam etdirilməsi və sosial psixiatrik reabilitasiyanın təmin olunması vacibdirsə, müvafiq ictimai təşkilatlarla razılaşdırmaqla tədbirlər görülür.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı.-2002, s. 116
2. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi. Bakı. - 2000.
3. Məhbuslarla beynəlxalq minimal standart davranış qaydaları. Birləşmiş Millətlər Təşkilatının cinayətkarlığın qarşısını almaq və qanun pozucuları ilə davranışa dair 1955-ci ildə Cenevrədə keçirilən birinci konqresində qəbul edilmiş və İqtisadi və Sosial Şura tərəfindən onun 663 (XXIV) sayh 31 iyul 1957-ci il və 2076 (XII) saylı 13 may 1977-ci il tarixli qətnamələri ilə bəyənilmişdir.
4. Avropa penitensiar qaydaları. 12 fevral 1987-ci il tarixdə Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən təstiq edilmişdir.
5. M.H. Hümbətov. «Məhkumun məlumat kitabı», Bakı.-2003 s. 289

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ**
**(OMBUDSMAN)**

**Ünvan:** AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 40, Hökumət evi, II qapı

**Əlavə məlumat üçün telefonlar:**(99412) 98 23 65, 93 74 22

**Faks:** (99412) 98 23 65, 98 85 74

**E-mail:**ombudsman@ombudsman.gov.az

apparat@ombudsman.gov.az

**Web-site:**www.ombudsman.gov.az

Kitab BMT-nin İnkişaf Proqramının dəstəyi ilə çap olunub.